

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 yanvar
2025-ci il,
şənbə
№ 014 (6842)
Qiymətı
60 qəpik


# ÜTT üzvlüyünün bir addımlığında...




Bax səh. 3

# Davosda Azərbaycana yüksək etimad nümayişi



Bax səh. 2

# Bələdiyyə seçkilərinə 4 gün qalır...

Bax səh. 2



## Olmayan münaqişənin "vasitəçi"si...

Azərbaycan ilə Ermənistan arasında normallaşma ilə bağlı proses finişə yaxınlaşdıqca, bəzi məsələlər daha çox diqqəti cəlb edir. 2023-cü il antiterror tədbirlərinin ardından özünün suverenliyini təmin edən Azərbaycan 30 ildən artıq davam etmiş ədalətsizliyə son qoydu - separatçı xunta rejiminin ləğv edilməsi ilə yeni reallıqlar ortaya çıxdı. Bu reallıqlar həm də hüquqi gerçəkliklərin proyeksiyası idi - bütün beynəlxalq sənədlərdə, qətnamə və qərarlarda, hətta bəyanatlarda belə Azərbaycanın ərazi bütövlüyü bütün vahidlər üzrə tanınıb. Bu mənada, Qarabağ adlı bir "münaqişənin" bitməsi həm də Azərbaycanın hüquqlarının, suverenliyinin bərpasının təsdiqi demək idi.

Ötən müddət ərzində isə Ermənistanın siyasi hakimiyyəti bu faktı dəfələrlə etiraf edib - bildirilib ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Ötən ildən başlayan, bu il isə yeni inkişaf mərhələsinə qədəm qoyan sərhədlərin delimitasiyası prosesi isə münasibətlərin yaxınlaşması üçün əsl məqama çevrilmə imkanını özündə ehtiva edir - rəsmi İrəvan sülh üçün özündə siyasi...

Bax səh. 3



## Yeni Azərbaycan Partiyası yüksək nüfuza malikdir

Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Babək rayonu, Babək bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Babək rayon təşkilatının sədri İsa Məmmədov qeyd edib ki, bütün sahələri əhatə edən islahatlar Azərbaycanın tərəqqisini və milli hədəflərimizin reallaşmasını təmin edən çox mühüm amillərdəndir. Bələdiyyələrin inkişafının diqqət mərkəzində olduğunu söyləyən təşkilat sədri yerli özünüidarəetmə orqanlarının qarşısında yeni çağırışlardan irəli gələn önəmli vəzifələrin dayandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası bu sahədə məqsədyönlü fəaliyyət göstərmək əzmindədir...

Bax səh. 4



## 100 gün planı...

Dünyanın supergüc dövləti olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) yeni seçilən Prezidenti Donald Tramp seçkiqabağı təşviqat kampaniyasında seçicilərin etimadını qazanıb Ağ Evə qayıdacağı təqdirdə qısa müddətdə Rusiya-Ukrayna müharibəsini dayandıracağı vədini verirdi. Seçicilər ona etimad göstərdilər. Yanvarın 20-də baş tutan andiçmə mərasimi ilə Ağ Evdə administrasiya dəyişikliyi reallaşdı. İndi söz D.Trampındır. O, vədinə əməl edib Rusiya-Ukrayna müharibəsini qısa müddətdə dayandıra biləcəkmi?

Müşahidələrə əsasən deyə bilərik ki, Trampın vədi əslində müharibəyə cəlb olunan hər iki dövlətin istəyi ilə üst-üstə düşür. Bu, eyni zamanda bütün dünyanın (bəzi dövlətləri çıxmaq şərtilə) istəyidir. Çünki 2022-ci il fevralın 24-də başlayan və artıq 3 ildir ki, davam edən dəhşətli müharibənin həm milli səviyyələrdə, həm də qlobal miqyasda yaratdığı fəsadlar çox böyükdür və bu fəsadlar ötən hər gün daha da dərinləşir. İnsan faciələri, xüsusilə də yüz minlərlə gəncin həyatını itirməsi, heç şübhəsiz ki, müharibənin ən ağır nəticəsidir. Ukrayna demoqrafik fəlakət içərisindədir. Verilən məlumatlara əsasən, hələ müharibədən əvvəl Ukraynada bu sahədə böhran olsa da, aktiv döyüş əməliyyatları başlayandan sonra vəziyyət faciəvi hal alıb. Yeddi milyon insanın...

Bax səh. 6




## MKİ-nin yeni rəhbəri...

Bax səh. 7



## Aİ narahatdır

Bax səh. 7

# Davosda Azərbaycana yüksək etimad nümayişi

## Qlobal investorlar Azərbaycana dəstək verir




### Davosda keçirilən görüşlər xarici sərmayəçilərin ölkəmizə marağını təsdiqləyir

Davos İqtisadi Forumunda (DİF) təmsil olunan Azərbaycan nümayəndə heyətinin beynəlxalq maliyyə institutları, iri holdinq və investisiya şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlər səmərəli və qarşılıqlı maraq doğuran işgüzar fəallıq ovqatında davam etməkdədir. Bu platforma çərçivəsində Azərbaycanın İqtisadiyyat Nazirliyinin, SOCAR-ın və digər qurumların rəhbərlərinin iştirakı ilə dünyanın tanınmış biznes icmasının nümayəndələri ilə keçirilən görüşlərdə Azərbaycanda həyata keçirilən iqtisadi layihələrin regiona verdiyi töhfələr, yaradılmış əlverişli investisiya mühiti sayəsində xarici sərmayəçilərin biznes fəallığı, "rəqəmsal iqtisadiyyat" quruculuğunda ölkəmizin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlarla əldə edilmiş müsbət nəticələr və s. məsələlər müzakirə olunub.

### "Goldman Sachs Group" Azərbaycanı yaxın tərəfdaş hesab edir

Dünya İqtisadi Forumunda iştirak edən qlobal investorların böyük bir qismi Azərbaycanda işləmək, sərmayə qoymaq üçün öz niyyətlərini ifadə etməkdədir. Dünyanın nəhəng investisiya və maliyyə şirkətlərindən biri "The Goldman Sachs Group İnc." şirkəti Azərbaycanı özü üçün yaxın tərəfdaş hesab edir. 2010-cu ildən Azərbaycanla əməkdaşlıq edən "The Goldman Sachs Group Inc." hazırda bu münasibətlərin dinamikasını daha da intensivləşdirmək istəyir. Mənzil-qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşən və 40-dan çox ölkədə fəaliyyət göstərən şirkət müxtəlif siniflər üzrə 2,8 trilyon dollar dəyərində aktivləri idarə edir. 2015-ci ildə "The Goldman Sachs Group Inc." idarə olunan aktivlərə (1,3 trilyon dollara yaxın) görə dünyanın ən böyük investisiya şirkətləri arasında 10-cu yerdə qərarlaşıb. Şirkət investisiya bankçılığı, qlobal bazar biznesi, aktivlərin idarə edilməsi və istehlak bankçılığı üzrə



qlobal və nəhəng iqtisadi institutlardan biridir. Müasir iqtisadi mühitdə Azərbaycanın maliyyə, sığorta, sərmayə sektorları ABŞ investoru üçün böyük maraq kəsb edir.

Dünyanın aparıcı investisiya qruplarından biri olan "OliverWyman Group"un da Azərbaycana marağı böyükdür. Şirkətin baş icraçı direktoru Nik Studer bildirib ki, Azərbaycanın iqtisadi transformasiya prosesi cəlbedicidir və bu baxımdan şirkət sığorta və maliyyə bazarının müxtəlif istiqamətlərində layihələr icra etməyi planlaşdırır.

### Qlobal nəqliyyat dəhlizlərində mövqeyimiz güclənir

Dünya iqtisadiyyatında özünəməxsus mövqeyi ilə tanınan digər bir şirkətin - "DP World"un da Azərbaycanla ticarət və nəqliyyat daşınmalarında əməkdaşlıq niyyətləri Davosda müzakirə olunub. Şirkətin icraçı direktoru Sultan Əhməd bin Sulaim qeyd edib ki, Azərbaycan Orta Dəhlizdə strateji mövqe tutur və müxtəlif coğrafi regionlarda baş verən proseslər Şərq-Qərb tranzit koridorunun daşınmalarının intensivliyini artırır, bu baxımdan Azərbaycanla logistika bağlantılarının gücləndirilməsi hər iki tərəf üçün fayda verə bilər.

Dünya biznes ailəsində kifayət qədər şöhrətli və sanballı təsisatlardan biri olan "Carlsberg Group" şirkətinin də Azərbaycana marağı böyükdür. Bir neçə ildir ki, fəaliyyət göstərən danimarkalı biznes qrupu ölkəmizdə təmin edilmiş sağlam sərmayə iqlimini nəzərə alaraq Azərbaycanda daha geniş imkanlar qurmaq niyyətindədir.




İşgüzar görüşlərdən biri iqtisadiyyat naziri Mikayıl Cabbarov və SOCAR-ın prezidenti Rövşən Nəcəflinin bp şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel arasında apardığı fikir mübadiləsi olub. Görüş zamanı şirkətin yaşıl enerji keçidində fəal iştirakı, ölkəmizlə səmərəli əməkdaşlığı və birgə fəaliyyət istiqamətlərinin şaxələndirilməsi müzakirə edilib.

### "Yaşıl texnologiya" şirkətləri ilə yeni əməkdaşlıq

Davos İqtisadi Forumu çərçivəsində "Vestas Wind Systems A/S" şirkətinin vitse-prezidenti Morten Dirholm ilə görüş də yaddaqalan olub. Danimarkanın tanınmış bərpaolunan enerji holdinqlərindən biri sayılan "Vestas Wind Systems A/S" dünyada "yaşıl enerji" sektorunun əsas infrastruktur və texnologiya təchizatçılarındandır. Şirkət Avropa və Asiya bazarlarında "yaşıl enerji"nin emalı və ötürülməsi sistemlərinin təmin edilməsində mühüm rol oynayır. Bu baxımdan Danimarka şirkətinin Azərbaycana gəlişi "yaşıl texnologiyalar"ın tətbiqinin genişlənməsində mühüm rol oynaya bilər. M.Dirholmla müzakirələrdə Azərbaycanın külək enerjisi sektorunda sözügedən şirkətin qabaqcıl texnologiyalarının tətbiqi imkanları və əməkdaşlıq məsələləri nəzərdən keçirilib. Eyni zamanda, bu şirkətin ölkəmizdə sənaye innovasiyalarının texnoloji təminatlarının qurulmasında iştirakı istisna olunmur.




Davos Forumu çərçivəsində təşkil olunan "Ticarət və İnvestisiya Rəhbərliyi Naharı" sessiyası da Azərbaycan üçün mühüm əhəmiyyət daşıyan mövzu rəngarəngliyi baxımından faydalı sayıla bilər. Bu görüşlərdə ticarət və sərmayələr sahəsində fəaliyyətin prioritet istiqamətləri nəzərdən keçirilib. İqtisadi diversifikasiya prosesinə geosiyasi təsirlər, innovasiya və səmərəlilik, idarəçilik və inkişaf kimi mövzular müzakirə olunub. Azərbaycanın qlobal bazarlara çıxış imkanlarının artmasında və qeyri-neft ixracında bu panel müzakirələrinə qatılan xarici ticarət tərəfdaşları ilə aparılan məsləhətləşmələr də xüsusi əhəmiyyət kəsb edir.

### Davosda sərmayələr üçün yeni imkanlar

Azərbaycan nümayəndə heyətinin "HSA Group" şirkətinin İdarə Heyətinin üzvü Fuad Hayel Saeed Anam ilə görüşündə Azərbaycanda xarici investorlar üçün yaradılmış əlverişli biznes mühiti barədə məlumat verilib. Aqrar sektor, sənaye və istehsal proseslərində dayanıqlı yanaşmaların tətbiqi və birgə fəaliyyət imkanları nəzərdən keçirilib. İştirakçılar son illərdə ölkəmizdə təmin edilmiş əlverişli sərmayə iqlimi və biznes üçün təşviqedici rol oynayan vergi-gömrük stimulları barədə məlumatlandırılıb. Azərbaycanın həm yerli, həm də beynəlxalq investisiyalar üçün cəlbedici ölkə olması vurğulanıb.



Yeri gəlmişkən, Dünya İqtisadi Forumunun (DİF) "Impact Report: Centre for the Fourth Industrial Revolution Network 2023-2024" adlı hesabatında Azərbaycanın investisiya cəlbediciliyi yüksək dəyərləndirilib. Hesabatda vurğulanır ki, xarici investisiyaların cəlb edilməsi, özəl sektorun stimullaşdırılması, rəqəmsallaşmanın inkişafı və müvafiq addımların atılması ölkənin sosial-iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın müasir gündəliyində ön planda dayanan prioritet sahələr kimi qeyri-neft sektoruna, ələlxüsus da rəqəmsal və süni intellekt, startaplar, innovasiyalar, yeni sənaye sektorları, "yaşıl enerji" və s. bölmələri müəyyən edilib ki, Davos Forumunda bu istiqamətlər üzrə xarici sərmayələrin cəlb edilməsi imkanları diqqətdə saxlanılır. Forumun Enerji və Materiallar Mərkəzinin Enerji Keçidi və Regional Akselerasiya üzrə rəhbəri Espen Mehlum mövcud müzakirələrin və əməkdaşlıq üçün maraqlı olan potensial xarici investorların ölkəmizdə rəqəmsal quruculuğa töhfə verə biləcəyini istisna etməyib.

Davosda təmsil olunan qlobal biznes icmasının Azərbaycanın iqtisadi sektora aid nümayəndələri ilə keçirdiyi görüşlərin hər biri onu təsdiq edir ki, Azərbaycan iqtisadiyyatına xarici sərmayəçilərin marağı böyükdür.

***E.CƏFƏRLİ***

# Bələdiyyə seçkilərinə 4 gün qalır...

## Seçki prosesində ən yüksək texnoloji yeniliklərdən istifadə edilir

Müstəqil Azərbaycan ölkəmizdə yanvarın 29-na təyin olunan növbəti bələdiyyə seçkilərinə yüksək əhval-ruhiyyə ilə gedir. İndiyədək "Azərbaycan Respublikasında bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı"na uyğun olaraq nəzərdə tutulan bütün tədbirlərin hamısı həyata keçirilib. Artıq hazırlıqların son mərhələsidir. Aparılan müşahidələr onu deməyə əsas verir ki, yerli özünüidarəetmə orqanlarına növbəti seçkilər də ciddi rəqabət şəraitində uğurla baş tutacaq.

### Azərbaycan öncül ölkələrdən biridir

Müasir dövlət kimi inkişaf edən Azərbaycanda prezident və parlament seçkilərində olduğu kimi, bələdiyyə seçkilərində də şəffaflığın təmin edilməsi əsas meyardan biri kimi müəyyənləşdirilib. Mərkəzi Seçki Komissiyası (MSK) veb-kameraların səsvermə günü aşkarlığın və şəffaflığın təmin olunmasındakı müstəsna rolunu nəzərə alaraq, qarşıdan gələn bələdiyyə seçkilərində də 118 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib və həmin məntəqələrin siyahısı rəsmi dərc olunub. Seçki günü internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, müasir standartlara cavab verən və ən yüksək görüntü effektinə malik bu veb-kameralar vasitəsilə seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini canlı və fasiləsiz müşahidə edə bilərlər.

Bu günlərdə qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev Komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib, veb-kameraların quraşdırılması istiqamətində reallaşdırılan son hazırlıq işləri ilə tanış olublar.

Bələdiyyə seçkilərində veb-kameraların tətbiqini birgə layihə çərçivəsində və sıx əməkdaşlıq şəraitində gerçəkləşdirən qurumların rəhbərlərinə veb-kameraların quraşdırılması, tənzimlənməsi və seçki gününə tam hazır vəziyyətə gətirilməsi ilə bağlı atılan yekun addımlar barədə məlumat verilib. Sözügedən fəaliyyəti həyata keçirən mütəxəssislərlə söhbət zamanı veb-kameraların seçkilərin şəffaflığının təmin olunmasındakı mühüm rolu bir daha vurğulanaraq, veb-kameraların quraşdırılması və tənzimlənməsi prosesində qanunvericiliyin tələblərinə dəqiqliklə əməl edilməsinin vacibliyi diqqətə çatdırılıb və zəruri tövsiyələr verilib.

Media subyektləri nümayəndələrinin bilavasitə iştirakı ilə baş tutan tədbirdə jurnalistlər üçün brifinq də keçirilib.

Bildirilib ki, Azərbaycanda keçirilən seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən geniş və səmərəli istifadə edilməklə, səsvermə günü də aşkarlığın və şəffaflığın böyük miqyasda təminatına nail olunub.

Xüsusilə qeyd edilib ki, ölkəmizin seçki praktikasında uzun illərdir müvəffəqiyyətlə tətbiq olunan veb-kamera təcrübəsi seçki günü səsvermə məntəqələrində proseslərin gedişinin internet üzərindən hamı üçün açıq platformada tam şəkildə, arasıkəsilmədən, habelə real vaxt rejimində dünyanın istənilən yerindən və heç bir qeydiyyat tələb olunmadan müşahidə etmək imkanı yaradır. Müxtəlif kateqoriyalı aşkarlıq institutlarının seçki prosesində rahat, asan iştirakı və sərbəst fəaliyyətləri üçün yaradılan hərtərəfli və geniş şərait baxımından Azərbaycan öncül ölkələrdən biridir.







### Seçki dairələrində təşkil olunan maarifləndirici treninqlər

Seçki dairələrində treninqlərin təşkili də hazırlıq prosesində görülən mühüm tədbirlər sırasında yer alır. Məqsəd bələdiyyə seçkilərinin yüksək səviyyədə təşkili, azad, ədalətli və şəffaf keçirilməsi, seçki sahəsində bilik, bacarıq və işgüzar vərdişlərin təkmilləşdirilməsi, xüsusilə protokolların düzgün doldurulması sahəsində məntəqə seçki komissiyası üzvlərinin maariflənməsidir.

Təlimlərdə MSK tərəfindən hazırlanmış slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və sair ilə bağlı məlumatlar verilib. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilib.

### Ölkə vətəndaşlarının xüsusi marağı

Qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar paytaxtda və regionlada böyük qələbəlik müşahidə edilir. İnsanlar müəyyən olunmuş yerlərə gələrək yerli özünüidarəetmə orqanlarında təmsil olunmaq istəyən namizədlərlə görüşlərə qatılır, onların planları ilə tanış olurlar. Bu, gələcəkdə bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq nöqteyi-nəzərindən çox önəmlidir. Seçicilər namizədləri daha yaxından tanıyırlar və kimə səs verəcəklərini bəri başdan müəyyənləşdirirlər.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib ki, bələdiyyə seçkiləri Azərbaycan ictimaiyyətində xüsusi maraq doğurur. 685 bələdiyyəyə 8071 üzv seçilməlidir. Adları bülletenlərə salınan namizədlərin sayı isə bundan iki dəfədən çox - 16 mindən artıqdır.

MSK rəsmisinin sözlərinə görə, Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 23-ü bələdiyyə seçkilərində öz namizədləri ilə fəal iştirak edir. O cümlədən 9 qeyri-hökumət təşkilatının təmsilçiləri həm namizəd, həm də müşahidəçi kimi qeydə alınıblar.

***MÜBARİZ***

## Azərbaycan təşkilatın 19 üzvü ilə danışıqlar aparır

# Ümumdünya Ticarət Təşkilatına üzvlüyün bir addımlığında...

Azərbaycan ABŞ, Avropa İttifaqı (Aİ), Norveç, İsveçrə, Rusiya, Çin, Kanada, Hindistan, Malayziya, İndoneziya, Cənubi Koreya, Argentina, Braziliya, Səudiyyə Ərəbistanı daxil olmaqla, ümumilikdə Ümumdünya Ticarət Təşkilatının (ÜTT) 19 üzvü ilə mallar və xidmətlər üzrə danışıqlar aparır. İqtisadiyyat Nazirliyindən bildirilib ki, bundan başqa, bir sıra üzv dövlətlərdən daxil olan sualların cavablandırılması istiqamətində müvafiq işlər görülür. ÜTT-yə üzvlüyü çərçivəsində ikitərəfli danışıqlarda mal nomenklaturu üzrə idxal tarifləri və müxtəlif xidmət sektorları üzrə bazara çıxış məsələləri, çoxtərəfli danışıqlarda isə ticarət rejimi, o cümlədən, texniki tənzimləmə və s. məsələlər müzakirə olunur.

Bir müddət əvvəl ölkəmizdə səfərdə olan ÜTT-nin baş direktoru Nqozi Okonyo-İveala da ölkəmizdə əlverişli işgüzar mühit və investorlar üçün yaradılan imkanları müsbət dəyərləndirərək Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı genişləndirməsi fonunda bu təşkilata üzvlüyünün yaxın vaxtlarda gerçəkləşəcəyini bildirib.






## Rəqabət Məcəlləsi ÜTT-yə üzvlük üçün yeni imkanlar açır

Ümumdünya Ticarət Təşkilatı ilə sıx əməkdaşlıq Azərbaycanın iqtisadi siyasətində hər zaman ilk yerlərdən birini tutub və 1995-ci ildən bu mötəbər qurumla sıx əməkdaşlıq edirik. Əsas məqsədi beynəlxalq ticarətin maksimum dərəcədə liberallaşdırılması və onun möhkəm əsaslarının yaradılması, bununla da iqtisadi inkişafın artırılması və insanların həyat səviyyəsinin yaxşılaşdırılmasından ibarət olan ÜTT-yə üzvlük üçün ölkəmiz ötən dövrdə iqtisadi-hüquqi addımlar adıb, çoxtərəfli ticarət danışıqlarını həyata keçirib. Respublikamız 1997-ci ildə ÜTT-yə üzv olmaq niyyətini əks etdirən müraciəti ÜTT Katibliyinə təqdim edib və həmin il ÜTT katibliyində ölkəmiz üzrə İşçi Qrup yaradılıb. İndiyə qədər Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü ilə bağlı bir neçə iclas keçirilib və üüzvlük prosesi çərçivəsində ABŞ, Avropa İttifaqı, Rusiya, İsveçrə, Tailand, Braziliya, Yaponiya ilə mallar və xidmətlər üzrə ikitərəfli danışıqlarda razılaşmalar əldə olunub. İkitərəfli danışıqlar nəticəsində bir neçə ölkə ilə protokallar imzalanib.

Hazırda öz qanunvericiliyini ÜTT tələblərinə uyğunlaşdıran ölkəmiz 10-dan artıq hüquqi sənədi təkmilləşdirib, gömrük qanunvericiliyini tam optimallaşdırıb. Yeni qəbul edilmiş Rəqabət Məcəlləsi isə artıq Azərbaycanın ÜTT-yə üzv olmasını tam yaxınlaşdırıb.



## Gömrük Tranzit Portalı ticarəti asanlaşdırır

Ötən ilin sonlarında yaradılan Transxəzər Gömrük Tranzit Portalı da bu strateji hədəflərin bir hissəsidir və beynəlxalq ticarətin asanlaşmasına xidmət edir. Tranzit Portalı xidmətləri asan və şəffaf bir pəncərədə birləşdirən sistem olmaqla, yüklərin tranzit ölkələrin ərazisindən sürətli keçidini təmin edən, quru və dəniz limanları arasında daşınmalar üçün səmərəli nəzarətə şərait yaradan rəqəmsal qovşaqdır. Nəticədə, görülən bütün işlər məhz Ümumdünya Ticarət Təşkilatının tövsiyələrinə tam uyğundur və bu qurumun asan ticarət tələbləri ilə üst-üstə düşür.

Beynəlxalq ticarətdə öz yerini möhkəmləndirmək, ixrac coğrafiyasını daha da genişləndirmək Azərbaycanın yeni iqtisadi hədəflərində də ön sırada yer alır. Milli İxrac Strategiyasına əsasən, Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, yeni bazarların araşdırılması, ixracın stimullaşdırılması və təşviqi istiqamətində sistemli və kompleks tədbirlər, həmçinin  yeni xarici ölkə bazarlarının tapılması və ixrac istiqamətlərinin coğrafi hüdudları müəyyən edilib. “Milli ixrac strategiyası” 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir. Həmçinin xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin təşviq edilməsi, “Made in Azerbaijan” və “İnvest in Azerbaijan” ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi, iri investorların Azərbaycana gətirilməsi və qeyri-neft istehsalı sahələrinə cəlbi məqsədilə yeni iqtisadi alətlərin tətbiqi strategiya sənədinin əsas prioritetləri sırasında yer alır.

Beləliklə, qlobal nəqliyyat daşınmalarının əsas coğrafi koordinatlarından birinə çevrilən Azərbaycan həm də beynəlxalq ticarətin axınlarını təmin etməyə hazırlaşır. Bu yeni reallıqlar ölkəmizin ÜTT-yə üzvlüyünü labüdləşdirib.

**ELBRUS**

## Orta Dəhliz - qlobal ticarət üçün yeni qapı

Hazırda Azərbaycan Orta Dəhlizin ən etibarlı nöqtələrindən birinə çevrilir, Şərq-Qərb istiqamətində tranzit qovşağı kimi beynəlxalq daşınmaların axıcılığını təmin edir. Bu gün beynəlxalq ticarət icması da Azərbaycanın bu geostrateji və coğrafi mövqeyinin əhəmiyyətini nəzərə alaraq Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun yaradılmasında xüsusi təşəbbüskarlıq göstərir, dəstək verir. Bundan başqa, Azərbaycan sərhəd-keçid sistemində ən müasir texnologiyalar tətbiq edərək gömrük rejimini asanlaşdırır, qlobal ticarət tərəfdaşları ilə gömrük dərəcələrinin aşağı salınması istiqamətində addımlar atır. Bir çox ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər imzalayır. Asan ticarətin ən təşviqedici aləti olan Preferensial Ticarət Sazişlərini imzalamaq üçün bir çox ölkələrlə danışıqlar aparır. 2021-ci ildə ilk dəfə olaraq qardaş Türkiyə ilə qarşılıqlı ticarətdə yeni yol açan Preferensial Ticarət Sazişinin qüvvəyə minməsi iqtisadi və ticari əlaqələrdə gömrük rejiminin sadələşdirilməsini təmin edib və bir neçə mal qrupu üzrə gömrük dərəcələrinin azalmasına gətirib çıxarıb. Belə sazişlərin əhatə dairəsinin genişləndirilməsi nəzərdə tutulur ki, bu da ÜTT-nin maraqlarına tam cavab verir.

# Olmayan münaqişənin “vasitəçi”si...

## ATƏT-in Minsk qrupu öz aktuallığını itirib

### Ermənistanın qrupun ləğvi ilə bağlı müraciəti gecikdirməsi fərqli planlardan xəbər verir

Azərbaycan ilə Ermənistan arasında normallaşma ilə bağlı proses finişə yaxınlaşdıqca, bəzi məsələlər daha çox diqqəti cəlb edir. 2023-cü il antiterror tədbirlərinin ardından özünün suverenliyini təmin edən Azərbaycan 30 ildən artıq davam etmiş ədalətsizliyə son qoydu - separatçı xunta rejiminin ləğv edilməsi ilə yeni reallıqlar ortaya çıxdı. Bu reallıqlar həm də hüquqi gerçəkliklərin proyeksiyası idi - bütün beynəlxalq sənədlərdə, qətnamə və qərarlarda, hətta bəyanatlarda belə Azərbaycanın ərazi bütövlüyü bütün vahidlər üzrə tanınıb. Bu mənada, Qarabağ adlı bir “münaqişənin” bitməsi həm də Azərbaycanın hüquqlarının, suverenliyinin bərpasının təsdiqi demək idi.

Ötən müddət ərzində isə Ermənistanın siyasi hakimiyyəti bu faktı dəfələrlə etiraf edib - bildirilib ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Ötən ildən başlayan, bu il isə yeni inkişaf mərhələsinə qədəm qoyan sərhədlərin delimitasiyası prosesi isə münasibətlərin yaxınlaşması üçün əsl məqama çevrilmə imkanını özündə ehtiva edir - rəsmi İrəvan sülh üçün özündə siyasi iradə formalaşdırmalıdır.



## Aktual olmayan qrup...

Beləliklə, münaqişənin başa çatması həm də ATƏT-in Minsk qrupunun ləğvini aktuallaşdırır. Artıq tərəflər vasitəçisiz bir ortamda razılaşmanın bir addımlığındadırlar, sülh sənədinin şərtlərinin mühüm əksəriyyəti razılaşdırılıb. Son reallıqlar bu quruma ehtiyacın qalmadığını faktiki olaraq ortaya qoyur. Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoyub. Ermənistan-Azərbaycan münaqişəsinin mövcud olmadığı halda bu tənzimləyici mexanizmin qalması nə dərəcədə məqsədəuyğun ola bilər?

Təsadüfi deyil ki, Prezident İlham Əliyev ötən ilin dekabrında “Rossiya Seqodnya” Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova müsahibəsində sülh sənədinin 17 maddəsinin 15-nin razılaşdırıldığını bildirmişdi və razılaşdırılmamış iki maddədən birinin də məhz ATƏT-in Minsk qrupu ilə bağlı olduğunu qeyd etmişdi: “Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni, Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir”.

Xatırladaq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin tənzimlənməsi üzrə birbaşa vasitəçi qismində tanınan Minsk qrupunun əsası 1994-cü ildə keçirilən ATƏM-in Budapeşt Zirvə toplantısı zamanı qoyulub. 28 avqust 1995-ci ildə isə ATƏT-in Fəaliyyətdə olan Sədrinin ATƏT-in Minsk Konfransının müzakirəsində olan münaqişə üzrə Şəxsi Nümayəndəsi (ŞN) vəzifəsi təsis olunub. 1 yanvar 1997-ci ildən münaqişənin sonuna qədər ATƏT-in Minsk prosesinə həmsədrlər qismində ABŞ, Rusiya və Fransa başçılıq ediblər.






## Paşinyanın ikili oyunu...

Bəli, konturlar artıq tam açıqdır - Ermənistan bu məsələdə iradə nümayiş etdirməli və lüzumsuz qrupun ləğvi ilə bağlı prosesə töhfə verməlidir. Qeyd edək ki, Ermənistanın baş nazirinin mətbuat katibi Nazeli Baqdasaryan sosial şəbəkədə ölkəsinin Minsk Qrupunun ləğvi məsələsi ilə bağlı ATƏT-ə müraciət etmək imkanını nəzərdən keçirdiyini vurğulayıb. Xatırladaq ki, ötən ilin dekabrında “Armenpress” dövlət agentliyinə müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyan da bildirmişdi ki, “Əgər münaqişə yoxdursa, münaqişənin həlli ilə məşğul olan formatın olmasının nə mənası var? Biz bu mövqeyi başa düşürük, amma əmin olmaq istəyirik ki, Azərbaycan da bu məsələyə eyni məntiqlə yanaşır”.

Amma Ermənistanın siyasi dairələrində bu fikrə etiraz edənlər də var. Məsələn, “Çiçəklənən Ermənistan” Partiyasının lideri Edmon Marukyan Ermənistanın xarici siyasətini və Avropaya inteqrasiya siyasətini tənqid edərək Minsk qrupunun buraxılmasını “son dərəcə təhlükəli” adlandırıb. “Minsk qrupunun buraxılması ona gətirib çıxaracaq ki, əslində biz işğalçı kimi tanınırıq”, deyən Marukyan bildirib ki, Azərbaycan Ermənistanın faşist və işğalçı dövlət olduğu fikrini təbliğ edir. Onun sözlərinə görə, Minsk qrupu dünyanı “Ermənistan işğalçıdır” deməkdən saxlayan beynəlxalq hüquqi format idi. Söhbət ondan gedirdi ki, münaqişə var idi və onu həll etmək üçün Minsk qrupu yaradılıb.

Erməni siyasətçi hesab edir ki, ATƏT-in Minsk qrupu fəaliyyət göstərməsə də, gələcəkdə “faydalı ola bilər”. Onun fikrincə, onun ləğvindən yalnız Azərbaycan qazanır, Ermənistan isə əvəzində heç nə almadan onun ləğvinə razılaşır.

## Ermənistanın “ümidi”...

Əslində isə, Ermənistanın ATƏT-in Minsk qrupunun saxlanılmasında istəyi tamam fərqli aspektdən irəli gəlir. Azərbaycanın irəli sürdüyü tələblərdən biri də Ermənistanın dövlət Konstitusiyasında dəyişikliyin edilməsi, oradan Azərbaycan torpaqlarına qarşı iddianın rəsmən çıxarılmasıdır. Ermənistan isə bu dəyişikliyi etməyə “tələsmir”. Onlar düşünürlər ki, indiki vəziyyətdə sülhü imzalamaqla gələcək üçün vaxt qazanmış olacaqlar. Yaranan ilk fürsətdəcə imzalanan sülhü bir kənara qoyaraq öz əsassız iddialarını yenidən gerçəkləşdirməyə çalışacaqlar. Bu işdə isə onlara ATƏT-in Minsk qrupunun saxlanılması “yardım” edə bilər. Bu yolla Ermənistan vəziyyəti yenə də 1990-cı illərə “transfer” etmək, özünün işğalçı niyyətini həyata keçirmək istəyir.

Təbii ki, Azərbaycan buna yol verməyəcək. Maraqlıdır ki, Minsk qrupunun həmsədr ölkələri də bu formatın artıq ömrünü başa vurduğunu dilə gətirib. Məsələn, Rusiyanın xarici işlər naziri Sergey Lavrov 24 iyun 2022-ci ildə azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşündə “Minsk qrupu fəaliyyətini dayandırıb” açıqlamasını vermişdi. Eyni zamanda, Minsk qrupunun digər həmsədri olan ABŞ-da Minsk qrupuna ehtiyac görmür. ABŞ dövlət katibinin Qafqaz üzrə müşaviri Filip Riker 2022-ci il noyabrın 17-də verdiyi açıqlamada faktiki olaraq Lavrovun sözlərini bu şəkildə təkrarlamışdı: “Minsk qrupu mexanizmi işləmir. Vaşinqton Azərbaycanla Ermənistan arasında sülh quruculuğuna dəstək verir”.

Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesinə xələl yetirmək üçün məqam gəzən Fransa da isə, təbii ki, bu məsələdə susqunluğunu qoruyur. Paris bölgəyə nəzərən erməni kartını əldən çıxarmamaq üçün Minsk qrupu formatına da bir vasitə kimi yanaşır.

Amma bütün bunlar heç bir əhəmiyyət daşımır - fakt odur ki, Azərbaycanın özünün iradəsi və gücü ilə münaqişəyə son qoyub. ATƏT-in Minsk qrupu isə sülhə mane olmaqdan başqa bir işə yaramır...

**P.İSMAYILOV**

# Yeni Azərbaycan Partiyası yüksək nüfuza malikdir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Babək rayonu, Babək bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Babək rayon təşkilatının sədri İsa Məmmədov qeyd edib ki, bütün sahələri əhatə edən islahatlar Azərbaycanın tərəqqisini və milli hədəflərimizin reallaşmasını təmin edən çox mühüm amillərdəndir. Bələdiyyələrin inkişafının diqqət mərkəzində olduğunu söyləyən təşkilat sədri yerli özünüidarəetmə orqanlarının qarşısında yeni çağırışlardan irəli gələn önəmli vəzifələrin dayandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyası bu sahədə məq-



sədyönlü fəaliyyət göstərmək əzmindədir.

Seçki qərargahının üzvləri Elvin Əliyev, Sədaqət Mahmudov və bələdiyyə üzvlüyünə namizəd Arif Cəfərov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Yeni Azərbaycan Partiyasının yüksək nüfuza malik olduğunu söyləyən natiqlər seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə və partiya tərəfindən irəli sürülmüş namizədlərə səs verməyə çağırıblar.

# "Yeni uğurlara birlikdə addımlayaq!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Gəncə şəhəri, Kəpəz bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan nailiyyətlərdən bəhs edərək ölkənin milli gücünün artdığını vurğulayıb və qarşıda dayanan bütün hədəflərin gerçəkləşdiriləcəyinə əminliyini ifadə



edib. O bildirib ki, müstəqil və uzaqgörən siyasət nəticəsində istər ölkəmizdə, istərsə də bütövlükdə regionumuzda yeni reallıqlar yaranıb, qarşımızda yeni perspektivlər açılıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə Yeni Azərbaycan Partiyasının Azərbaycanın yüksəlişində - ictimai-siyasi sabitliyin qorunması, əhalinin rifahının yaxşılaşdırılması, milli həmrəyliyin gücləndirilməsi, sosial-iqtisadi islahatların uğurla reallaşdırılması və di-



gər istiqamətlərdə çox mühüm nailiyyətlərin əldə edilməsində müstəsna rol oynadığını qeyd edib. O bildirib ki, ölkəmizin inkişafına xidmət edən uğurlu fəaliyyət xalqın partiyaya inam və etibarının daha da artmasına yol açıb.

Seçki qərargahının üzvü Nəzakət İsmayılzadə və bələdiyyə üzvlüyünə namizəd Ümid Şükürov YAP-ın seçki proqramı barədə ətraflı məlumat verib, qarşıdan gələn bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının qələbə qazanacağına əminliklərini ifadə ediblər. "Yeni Azərbaycan Partiyasına növbəti dəfə etimad göstərməklə yeni uğurlara birlikdə addımlayaq", - deyə seçicilərə çağırış edilib.

# Xalqın etimadı əsasında...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu və Zabrat bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Sabunçu rayon təşkilatı sədrinin müavini Zülfüqar Cəfərov Yeni Azərbaycan Partiyasının ölkəmizin tərəqqisində, müstəqil dövlətçiliyimizin əsaslarının möhkəmləndirilməsində tarixi rolundan və misilsiz xidmətlərindən bəhs edib. O bildirib ki, müasir dövrdə hər bir siyasi partiyanın ictimai nüfuzunu müəyyən edən əsas amillərdən biri seçkilərdə əldə edilən nəticələrdir: "Yeni Azərbaycan Partiyası ümumxalq və qələbələr partiyasıdır. Şübhə yoxdur ki, YAP yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərində də xalqın dəstəyi və etimadı əsasında böyük uğur qazanacaq".

Bələdiyyə üzvlüyünə namizədlər Məzahir Məsimov, Hüseyn Nəcəfov, Nailə Nəsirova, Rəhiməxanım Abbasova, Talut Hüseynov, Mirməhəmməd Seyidov və Əfiqə Abdullayeva Prezident İlham





Əliyevin rəhbərliyi ilə aparılan genişmiqyaslı islahatların vətəndaş məmnunluğunu artırdığını vurğulayaraq əhalinin rifahının daha da yaxşılaşmasına xidmət edən addımların əhəmiyyətinə diqqəti cəlb ediblər.

Seçicilər Əmrayə Abbasova, Rəna Hümbətova, Zəminə Musayeva və başqaları bələdiyyə seçkilərində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini deyiblər.

# Lider ölkənin lider partiyası daha bir qələbə qazanacaq!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Qaradağ rayonu, Sahil bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qaradağ rayon təşkilatının sədri Qafar Əliyev bildirib ki, Azərbaycan inamla inkişaf edərək regionun lider dövlətinə çevrilib: "Prezident İlham Əliyevin milli maraqlara əsaslanan uğurlu siyasəti ölkəmizin sosial-iqtisadi tərəqqisini, hərbi gücünün və



müdafiə qabiliyyətinin yüksəlməsini, beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsini təmin edib. Ölkəmiz bundan sonra da mühüm nailiyyətlər qazanaraq yeni zirvələr fəth edəcəkdir".

Bələdiyyə üzvlüyünə namizədlər Ramil Hüseynov, Yusif Nəcəfzadə, Elmira Əliyeva, Namiq Vəliyev, Cavanşir Eyvazov və Nuranə Davrinbəyova YAP-ın seçki proqramında yerli özünüidarə orqanlarının inkişafı ilə əlaqədar əksini tapmış hədəfləri



diqqətə çatdırıblar. Onlar yeni dönəmdə bələdiyyələrin qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsi üçün seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar. "İnanırıq ki, Cənubi Qafqaz regionunun lider ölkəsi olan Azərbaycanın lider partiyası YAP xalqın iradəsi ilə daha bir qələbə qazanacaq", - deyə vurğulanıb.

Seçicilərdən şəhid anası Leyla Musayeva, şəhid atası Əjdər Mirzəliyev, İrzababa İbrahimov, Mehdi Novruzov, Rövşən Abbasov, Nuranə Səlimxanova, Zahidə Şükürova, Bəsti Laçınova və başqaları Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini ifadə ediblər.

# İnkişaf naminə...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qobustan rayonu, Qobustan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Qobustan rayon təşkilatının sədri Qasım Qasımov qeyd edib ki, ölkəmizdə həyata keçirilən milli inkişaf siyasəti səmərəli nəticələr verir. Onun sözlərinə görə, müasir Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə möhkəm təməl üzərində addımlayan Azərbaycan möhtəşəm nailiyyətləri, zəfərləri ilə dünyanın diqqətindədir".

Seçki qərargahının üzvü Vüqar Hüseynov, bələdiyyə üzvlüyünə namizədlər Sevda



Rəfiyeva, Elburus Xanatov və Ruslan Əhmədov bələdiyyə seçkilərinin önəmindən bəhs ediblər. Onlar YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar.

# İslahatlar davamlıdır!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Oğuz rayonu, Oğuz bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.



YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov bildirib ki, Azərbaycanın tərəqqisini təmin edən mühüm amillərdən biri sistemli islahatların həyata keçirilməsidir: "Ölkəmizdə inamla davam etdirilən islahatlar mühüm uğurların əldə edilməsini şərtləndirməklə yanaşı, yeni inkişaf perspektivləri formalaşdırır".

Seçki qərargahının üzvü Ehtibar Yusubov, bələdiyyə üzvlüyünə namizədlər Arif Cavadov, Rəftar Əhmədli, Rauf Orucov, Akif Əliyev, Rəhim Abdurrəfiyev, Tural Əbdürəhmanov və Şəhanə Fərəcova bə-



lədiyyələrin sosial-iqtisadi məsələlərin həllində rolundan bəhs ediblər. YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verilərək yerli özünüidarəetmədə vətəndaşların rolunun artırılmasının əhəmiyyəti vurğulanıb.

Seçicilərdən Emin Əzimli, Nizami Hüseynli, Mürvət Qədirov və digərləri Azərbaycanın dinamik inkişafına müstəsna töhfələr verən Yeni Azərbaycan Partiyasının irəli sürdüyü namizədləri dəstəkləyəcəklərini bildiriblər.

# Ardıcıl nailiyyətlər, parlaq gələcək...



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Tərtər rayonu, Tərtər və Azad Qaraqoyunlu bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bugünkü uğurların ciddi ictimai-siyasi əsasları mövcuddur: "YAP çox böyük - zəngin və şərəfli yol keçib. Cəmiyyətin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası milli məqsədlərə nail olunmasına layiqli töhfələr verib və bu fəaliyyət hazırda inamla davam etdirilir. Ardıcıl uğurlar dövlətimizin gücünü daha da artırır. YAP öz səmərəli fəaliyyəti ilə ölkənin etibarlı və parlaq gələcəyinin təmin olunmasında müstəsna rol oynayır. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin bildirdiyi kimi, Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır".





Seçki qərargahının üzvü Azər Ağayev, namizədlər Rafayıl Hüseynov və Xalis Zeynalov bələdiyyələrin inkişafı ilə əlaqədar görülən işlərlə yanaşı, yerli özünüidarəetmənin təkmilləşdirilməsi naminə qarşıda duran vəzifələri diqqətə çatdırıblar. Bildirilib ki, YAP-ın seçki proqramında bu məsələlərlə bağlı əsas hədəflər öz əksini tapıb. "YAP xalqımızın alternativsiz seçimidir", - deyən natiqlər seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırıblar.

# Vətəndaşlar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunublar



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bərdə rayonu, Xəsili və Bərdə bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Bərdə rayon təşkilatının sədri Faqət Şadlinskaya qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən işlər ölkəmizə tarixi nailiyyətlər qazandırıb. "Sosial-iqtisadi və siyasi islahatların uğurlu nəticəsi olaraq dövlətimizin nüfuzu artıb, insanların rifahı daha da yüksəlib. Vətəndaşlar dövlətin hərtərəfli qayğısı ilə əhatə olunub", - deyən rayon təşkilatının sədri seçiciləri növbəti dəfə Yeni Azərbaycan Partiyasına etimad göstərməyə çağırış edib.





Seçki qərargahının üzvü Elməddin Əsgərxanov, bələdiyyə üzvlüyünə namizədlər Akif Əhmədov, Rəfail Bəylərov, Saleh Kərimov, İlqar Səlimov, Ruslan Əhmədov və İftixar Zeynalov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verərək partiyanın bundan sonra da xalqımızın qarşısında dayanan vəzifələrin yerinə yetirilməsinə layiqli töhfələr verəcəyinə əminliklərini ifadə ediblər.

Seçicilər Mirzəli Rzayev, Vaqif Şərəfxanov, Kəmalə Rəfibəyli, Sakit Əhmədov və başqaları çıxış edərək YAP-ın namizədlərini dəstəklədiklərini bildiriblər.

# Daha güclü Azərbaycan naminə!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Suraxanı rayonu, Hövsan, Əmircan və Qaraçuxur bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında aparıcı rolundan danışıb. O qeyd edib ki, gələcəyə doğru inamla addımlayan YAP Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin daha da qüdrətlənməsi üçün ciddi səylər göstərir: "Bu gün YAP sıralarında birləşən hər bir şəxs qürurludur. Çünki Yeni Azərbaycan Partiyası qalib xalqın Zəfər partiyasıdır".

Bələdiyyə üzvlüyünə namizədlər Elburus Xəlilov, İbrahim İbrahimov, Seymur Rəsulov, Sənan Əliyev, Könül Hümbətova, Nəzrin Mirzəli, Məzahir Əhmədli və digərləri YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər. Onlar seçiciləri bələdiyyələrin təkmilləşdirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirilməsi üçün Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.





# Yeni hədəflərin gerçəkləşdirilməsi növbəti uğurlara yol açacaq



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov qeyd edib ki, bu gün qüdrətli Azərbaycan dövləti Heydər Əliyev ideyaları əsasında və Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla inkişaf edir. "Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir. Azərbaycan Prezidenti məqsədyönlü siyasəti ilə ölkənin iqtisadi potensialının, siyasi nüfuzunun artmasını, beynəlxalq mövqeyinin möhkəmlənməsini, xalq-iqtidar birliyinin, milli həmrəyliyin güclənməsini təmin edir. Hazırkı reallıqlar Heydər Əliyev yolunun Azərbaycanın yüksəlişinin əsasını təşkil etdiyini bir daha təsdiqləyir", - deyən E.Abasov əlavə edib ki, ölkəmizə tarixi uğurlar qazandıran, xalqın inam və etimadını doğruldan, yeni və müstəqil Azərbaycan quruculuğunu təmin edən Yeni Azərbaycan Partiyası milli hədəflərin gerçəkləşdirilməsinə dəyərli töhfələrini verir.





Seçki qərargahının üzvləri Fəranə Gözəlova, təşviqat qrupunun üzvü Arzu Cahangirova, bələdiyyə üzvlüyünə namizədlər Əli Kərimov, Möhübət Məhərrəmov YAP-ın qələbələr partiyası olduğunu və növbəti bələdiyyə seçkilərinin də xalqın Zəfər partiyasına sarsılmaz inamını əks etdirəcəyini vurğulayıblar. "Xalqın dəstəyi ilə yeni hədəflərin gerçəkləşdirilməsi növbəti uğurlara yol açacaq", - deyə vurğulanıb.

# Şahbuz seçiciləri YAP-ın namizədlərinə səs verəcəklər!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şahbuz rayonu, Şahbuz bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şahbuz rayon təşkilatının sədri Rizvan Məmmədov qeyd edib ki, Yeni Azərbaycan Partiyası hər zaman öz fəaliyyətində xalqa xidmət prinsipini əsas götürüb. "Bu səbəbdən partiyamız davamlı uğurlara və böyük qələbələrə imza atıb. Bələdiyyə seçkilərində də xalqın seçiminin Yeni Azərbaycan Partiyası olacağına şübhə yoxdur", - deyə R.Məmmədov vurğulayıb.

Bələdiyyə üzvlüyünə namizədlər Kəramət Abbaslı, Aysu Hacıyeva, Yenibar Hüseynov, Səmra Məmmədli, Əvəz Mürşüdov, Elcan Müzəffərli, Ofelya Piriyeva, İlham Qəhrəmanov, Bəxtiyar Tarverdiyev, Yenibar Vəliyev seçiciləri yeni uğurlar əldə etmək üçün Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verməyə çağırıblar.





Seçicilər Aynur Hüseynova, Günay Əliyeva, Heydər Cəbiyev və digərləri bələdiyyə seçkilərində partiyanın namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

# "Hər bir məqsədə zamanında nail oluruq"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Tovuz rayonu, Aşağı Öysüzlü və Aşağı Quşçu bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Tovuz rayon təşkilatının sədri Nihad Pənahov bildirib ki, ardıcıl müvəffəqiyyətlər qazanan müasir Azərbaycanın inkişafı davamlı, dinamik və hərtərəfli xarakter alıb: "Mövcud reallıqlar əminlik yaradır ki, Azərbaycan dövləti Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə yeni möhtəşəm uğurlar qazanacaq, öz qüdrətini daha da artıracaq".

Seçki qərargahının üzvü İlqar Kərimov, bələdiyyə üzvlüyünə namizədlər Hikmət Zeynalov və Aygün Tağıyeva ölkəmizdə bütün sahələr üzrə inkişafın təmin edildiyini, Azərbaycanın dünyada söz və nüfuz sahibinə çevrildiyini diqqətə çatdırıblar. "Azərbaycan uğurlu siyasəti ilə hər bir hədəfə zamanında nail olur", - deyə vurğulanıb. YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verən natiqləri seçiciləri partiyanın namizədlərini dəstəkləməyə çağırıblar.





# İnkişafımızın düsturu...

## İctimai və dövlət maraqlarının müdafiəsi ən mühüm amildir

İctimai və dövlət maraqlarının qorunması istənilən cəmiyyətin başlıca məqsədlərindən hesab olunur. Ölkəmizin əsas məqsədlərdən biri onun inkişaf vektorunu müstəqil müəyyən etməyə qadir güclü vətəndaş cəmiyyətinin formalaşmasını təmin etməkdir. Məhz belə bir cəmiyyət ictimai və dövlət maraqlarının səmərəli müdafiəsinə zəmanət verir, neqativ tendensiyaların qarşısını alır.

Son illər dövlət maraqlarımızın qorunması istiqamətində mühüm və vacib addımlar atılıb. Sirr deyil ki, beynəlxalq müstəvidə Azərbaycanın dövlət və milli maraqlarının qorunması istiqamətində sistemli siyasət yürüdülür. Həmçinin diaspor nümayəndələrimiz də xarici ölkələrdə koordinasiyalı şəkildə işlər görməkdədir. Bu, ölkəmizdə yürüdülən milli və dövlət maraqlarının qorunması istiqamətində ardıcıl siyasətin mühüm tərkib hissəsidir.

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov bildirib ki, ictimai və dövlət maraqlarının qorunması ədalətli, inklüziv cəmiyyətin formalaşmasına böyük töhfə verir: "İctimai maraqlar vətəndaşların kollektiv rifahı və hüquqlarına aiddir. Bunlara səhiyyə, təhsil, təhlükəsizlik və təmiz ətraf mühitə çıxış daxildir. Dövlət maraqları isə milli suverenliyimizin, ərazi bütövlüyümüzün və siyasi sabitliyimizin qorunmasını nəzərdə tutur. Bu maraqlar çox vaxt üst-üstə düşsə də, dövlətin ehtiyacları fərdlərin və ya qrupların hüquqları ilə ziddiyyət təşkil etdikdə müəyyən problemlər yarana bilər. Məsələn, fövqəladə hallar zamanı hökumətlər müşahidə proqramlarının həyata keçirilməsi və ya komendant saatının tətbiqi kimi müəyyən azadlıqları məhdudlaşdıran dövlət təhlükəsizlik tədbirlərinə üstünlük verə bilərlər. İctimai maraqların müdafiəsi ilə dövlət hakimiyyətinin saxlanması arasında düzgün balansın yaradılması incə və davamlı prosesdir".

Deputat qeyd edib ki, ictimai və dövlət maraqlarının qorunması bir neçə səbəbə görə vacibdir: "Bu, ilk növbədə sosial sabitliyin təşviqində zəruri rol oynayır. Əsas xidmətlərə çıxışın təmin edilməsi və bərabərsizliklərin aradan qaldırılması vətəndaşlar və hökumət arasında etimadı artırır. Sabit cəmiyyət iğtişaşlara və münaqişələrə daha az meyllidir. İkincisi, milli təhlükəsizliyin qorunması kimi mühüm cəhəti özündə



ehtiva edir. Faktdır ki, sərhədlərin qorunması, terrorizmin qarşısının alınması və siyasi sabitliyin gözlənilməsi bir millətin suverenliyini və müstəqilliyini qorumaq üçün vacibdir. Üçüncü cəhət ədalət və bərabərliyin təmin edilməsidir. Bütün qrupların hüquqlarının qorunması, vətəndaşlar üçün bərabər imkanların təmin edilməsi ədalətli və inklüziv cəmiyyətə töhfə verir. Dördüncü məqam isə iqtisadi inkişafın təşviqi ilə bağlıdır. Güclü dövlət institutları və effektiv idarəetmə investisiya, innovasiya, davamlı inkişaf üçün əlverişli mühit yaradır. O da qeyd olunmalıdır ki, ictimai və dövlət maraqlarının qorunması vəzifəsi çətinliklərlə doludur. Məsələn, bu prosesdə fərdi hüquqlar və kollektiv ehtiyacların tarazlaşdırılması olduqca mühümdür".

B.Məhərrəmovun sözlərinə görə, vətəndaş cəmiyyəti ictimai və dövlət maraqlarının müdafiəsində mühüm rol oynayır: "Qeyri-hökumət təşkilatları, təbliğat qrupları aktual problemlər haqqında məlumatlılığı artıraraq nəzarətçi kimi çıxış edirlər. Beləliklə, ictimai və dövlət maraqlarının müdafiəsi hökumətlərin, qurumların və vətəndaşların kollektiv səylərini tələb edən dinamik və mürəkkəb bir işdir. Şəffaflıq, inklüzivlik və əməkdaşlığa üstünlük verməklə cəmiyyətlər ədaləti, bərabərliyi və sabitliyi qoruyaraq müasir dünyanın çağırışlarına adekvat cavab verə bilərlər. Nəticə etibarı ilə, bu maraqların effektiv müdafiəsi möhkəm, firavan və harmonik cəmiyyətlərin qurulması üçün vacibdir. Milli maraq Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur. Nəzərə alsaq ki, müasir Azərbaycan sosiumu intellektual əsaslarda formalaşmış modern bir cəmiyyət kimi xarakterizə olunur. O zaman əminliklə söyləyə bilərik ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, formalaşmış bir yetkin cəmiyyətdir. Azərbaycanda ictimai və dövlət maraqlarının müdafiəsi işinə mühüm töhfələr verən strateji amillərdən biri demokratik inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə edilməsi, o cümlədən bütün azadlıqların təmin olunmasıdır. Bu da ölkənin nailiyyətlərini artırır".

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti üzrə hazırlanmışdır**

# 100 gün planı...

## Tramp "sülh prezidenti" ola biləcəkmi?

**Dünyanın supergüc dövləti olan Amerika Birləşmiş Ştatlarının (ABŞ) yeni seçilən Prezidenti Donald Tramp seçkiqabağı təşviqat kampaniyasında seçicilərin etimadını qazanıb Ağ Evə qayıdacağı təqdirdə qısa müddətdə Rusiya-Ukrayna müharibəsini dayandıracağı vədini verirdi. Seçicilər ona etimad göstərdilər. Yanvarın 20-də baş tutan andiçmə mərasimi ilə Ağ Evdə administrasiya dəyişikliyi reallaşdı. İndi söz D.Trampındır. O, vədinə əməl edib Rusiya-Ukrayna müharibəsini qısa müddətdə dayandıra biləcəkmi?**

### Dəhşətli müharibənin hər gün artan fəsadları

Müşahidələrə əsasən deyə bilərik ki, Trampın vədi əslində müharibəyə cəlb olunan hər iki dövlətin istəyi ilə üst-üstə düşür. Bu, eyni zamanda bütün dünyanın (bəzi dövlətləri çıxmaq şərtilə) istəyidir. Çünki 2022-ci il fevralın 24-də başlayan və artıq üç ildir ki, davam edən dəhşətli müharibənin həm milli səviyyələrdə, həm də qlobal miqyasda yaratdığı fəsadlar çox böyükdür və bu fəsadlar ötən hər gün daha da dərinləşir. İnsan faciələri, xüsusilə də yüz minlərlə gəncin həyatını itirməsi, heç şübhəsiz ki, müharibənin ən ağır nəticəsidir. Ukrayna demoqrafik fəlakət içərisindədir. Verilən məlumatlara əsasən, hələ müharibədən əvvəl Ukraynada bu sahədə böhran olsa da, aktiv döyüş əməliyyatları başlayandan sonra vəziyyət faciəvi hal alıb. Yeddi milyon insanın məcburiyyət qarşısında qalaraq ölkəni tərk etdiyi bildirilir. Ən azı beş milyon ukraynalı isə hazırda Rusiyanın nəzarəti altına keçən ərazilərdə yaşayır. Əgər 1990-cı illərin əvvəllərində Ukrayna əhalisinin sayı 51,5 milyona çatmışdısa, hazırda Kiyevin nəzarətində qalan ərazilərdə cəmi 29 milyon insan yaşayır. Ukraynanın iqtisadiyyatı da iflic hala düşüb. İş o yerə çatıb ki, ölkənin büdcəsi Qərb dövlətləri tərəfindən dəstəklənir.

Müharibənin Rusiyaya vurduğu ziyanın miqyası da kifayət qədər böyükdür. Bu ölkə də yorucu müharibəyə cəlb olunduğunun fərqindədir. Aktiv döyüşlərdə Rusiyanın daha çox sayda hərbiçi itirdiyi bildirilir. Rusiya 3 il ərzində hərbi sənayesini əhəmiyyətli dərəcədə səfərbər etməyi bacarsa da, Qərbin tətbiq etdiyi ardıcıl sanksiyalar fonunda digər sahələrdə geriləmələr qaçılmaz olub. Xüsusilə də neft-qaz ehtiyatlarının, qiymətli metalların ixracının məhdudiyyətlər altına düşməsi nəticəsində ölkə milyardlarla dollar həcmində gəlirdən məhrum qalır. Buna görə də hazırda Rusiya özünün karbohidrogen resurslarını bir sıra ölkələrə dünya bazarı qiymətlərindən xeyli ucuz satmaq zərurəti ilə üz-üzə qalıb.

Uzanan müharibə həm də demək olar ki, bütün dünya üçün mühüm tendensiyalar formalaşdırıb. Müharibə coğrafiyasının genişlənməsi ilə bağlı xəbərlər Avropada böyük həyəcanla izlənilir. Eyni zamanda, Rusiyaya tətbiq olunan sanksiyalar Avropa İttifaqı məkanında təchizata mənfi təsir göstərir, istehsal zəncirində qırılmalar müşahidə edilir, inflyasiya artıb və enerji təhlükəsizliyinə ciddi təhdidlər yaranıb.

Bu kimi reallıqlar fonunda Trampın müharibəni qısa müddətdə dayandıracağı ilə bağlı vədi bir ümid işığı kimi görünür. Burada böyük supergüc dövlət kimi ABŞ-ın, xüsusilə də Bayden-Blinken administrasiyasının məsuliyyəti də önə çıxır. Yeni administrasiyada etiraf olunur ki, milyonların faciəsinə səbəb olan müharibənin başlamasında və uzanmasında Ağ Ev də bu və ya digər formada rol alıb. D. Trampın cəsarətlə "mən ABŞ-ın prezidenti olsaydım, müharibə başlamayacaqdı" deməsi heç də təsadüfi deyil.



"Ukraynaya görə, ABŞ Prezidenti Co Bayden Qərb və Rusiya arasında demək olar ki, nüvə münaqişəsinə çevrilə biləcək müharibəyə səbəb olub". Bu fikri isə Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev ifadə edib. "Baydenin qərarlarının təsirləri uzun müddət davam edəcək. Rusiya ilə ABŞ arasında münasibətlərin tam normallaşması üçün onilliklər lazımdır", - deyə Medvedev vurğulayıb.



### Yeni administrasiya: Müharibə başa çatmalıdır

Trampın ardıcıl açıqlamaları fonunda yaranan suallardan biri belədir: O, "sülh prezidenti" ola biləcəkmi? Ağ Evin yeni sahibinin özü təşviqat kampaniyasında olduğu kimi, yenə də sülh ritorikasından çıxış edir. O, dünyadakı münaqişələrin həllində iştirak edəcəyini bildirib. "Bizim uğurumuz təkcə qalib gəldiyimiz döyüşlərdən yox, həm də bitirdiyimiz müharibələrdən ibarət olacaq. Müharibələrə cəlb edilməmək vacib olacaq. Mən sülhməramlı və insanları bir araya gətirən insan olmaq istəyirəm", - deyə D.Tramp son açıqlamalarının birində vurğulayıb.

ABŞ-ın sülh gündəliyində Rusiya-Ukrayna müharibəsinin hansısa bir formada sonuclanmasına xüsusi önəm verilir. "The Wall Street Journal" (WSJ) qəzetinin yaydığı məlumata əsasən, Tramp Ukrayna üzrə xüsusi nümayəndəsi Kit Kelloqa müharibəni 100 gün ərzində başa çatdırmaqla bağlı tapşırıq verib. Mənbələr Trampın Ukrayna üzrə danışıqlar prosesinin gedişinə şəxsən nəzarət etmək niyyətində olduğunu bildiriblər.

Bu arada ABŞ dövlət katibindən də Ukrayna ilə bağlı "Müharibə başa çatmalıdır" məzmunlu ilk açıqlama gəlib. "Ukraynada müharibə başa çatmalıdır. Vəziyyət dalana dirənib". - deyə yeni dövlət katibi Marko Rubio deyib. Onun sözlərinə görə, Rusiya- Ukrayna müharibəsinə son qoymaq ABŞ-ın rəsmi siyasətinin tərkib hissəsi olacaq. Fikirlərinə davam edən dövlət katibi vurğulayıb: "Bu, Ukraynaya, eləcə də Rusiyaya və Avropanın sabitliyinə böyük ziyan vuran mürəkkəb, faciəli müharibədir. Bu problemləri həll etməyin yeganə yolu praqmatizmə qayıtmaqdır".

### Bəs Ağ Ev müharibəni hansı ssenari ilə bitirmək istəyir?

Əsas məsələlərdən biri müharibəni hansı ssenari əsasında bitirməklə bağlıdır. Trampın Rusiya ilə Ukrayna arasında müharibənin sonclanmasını özündə ehtiva edən 100 gün planı anons edilsə də, detallara aydınlıq gətirilmir və yaxud bunlar geniş ictimaiyyətdən gizli saxlanılır. Razılaşmanın çətin başa gələcəyini deməyə əsas verən məqamlar isə çoxdur. Hazırda Ukrayna ərazisinin təxminən 20 faizi Rusiyanın nəzarəti altındadır. Ukrayna torpaq itkisi ilə sülhə razı olacaqmı? Və yaxud Rusiya sülh müqabilində itkilər hesabına nəzarəti altına keçirdiyi ərazilərdən geri çəkiləcəkmi? Rusiya NATO-nun genişlənmə planının müharibəyə səbəb olan əsas amil kimi göstərir. Moskva Şimali Atlantika Alyansının Ukraynanı öz sıralarına qatmaqla Rusiyanın sərhədlərinə doğru genişlənməsini özünün qırmızı xətti saydığını dəfələrlə bəyan edib. NATO-nun Rusiyanın sərhədlərinə doğru genişlənməsi təxirə salınacaqmı? Müharibənin başa çatması üçün 100 günlük planda bu kimi suallara aydınlıq gətirilməlidir.

Hələlik bəyan olunan "müharibəni birirmək" planında çoxsaylı sualların cavabı açıq qalsa da, Ağ Evdən gələn son bəyanatlarda tərəflərin müəyyən güzəştlərə getmək məcburiyyətində qalmalı olduqlarına işarələr edilir. O qənaət hasil olur ki, planlarda həmçinin tərəflərin şərtlər əsasında sülhə məcbur edilmələri də istisna olunmur. Bunu Trampın açıqlamasından da görmək mümkündür. Rusiyaya zərər vermək niyyətinin olmadığını və Ukraynada nizamlanma ilə bağlı saziş imzalamağın vaxtının çatdığını deyən Tramp əslində Rusiyanı seçim qarşısında qoyub. Sitat: "Rusiya Ukrayna ilə bağlı razılığa gəlməsə, ABŞ Moskvanın satdığı hər şeyə yüksək tariflər və sanksiyalar tətbiq edəcək. Ukrayna münaqişəsini asan və ya çətin yolla bitirmək olar. Mən asan yola üstünlük verirəm. Rusiyaya zərər vermək istəmirəm".

Eyni zamanda, söhbət yalnız yeni administrasiyanın Rusiyaya yönəlik şərtlərindən getmir. Yeni adminstrasiya dönəmində Ukraynanın da ABŞ-ın qəzəbinə tuş gəlmək ehtimalları tam realdır. Təsadüfi deyildir ki, son günlərdə Vaşinqtodan Kiyevə maliyyə dəstəyinin və sursat təchizatının azaldıla biləcəyi ilə bağlı siqnallar verilir.



### Moskva şərtləri araşdırır, Kiyev təhlükəsizlik qarantı istəyir...

Şübhəsiz ki, müharibəni sonuclamaqla bağlı 100 gün planının detalları gözlənilən Tramp-Putin görüşündə ətraflı müzakirə olunacaq. Tramp bu görüşün mümkün qədər tez bir zamanda baş tutmasını istəyir. Öz növbəsində Putin də görüş niyyətini açıqlayıb. Rusiya Prezidenti bildirib ki, ölkəsi ABŞ-ın yeni administrasiyası ilə Ukrayna üzrə dialoqa hazırdır. "Biz Ukrayna məsələsində ABŞ-ın yeni administrasiyası ilə dialoqa açığıq. Burada ən mühüm məsələ böhranın köklü səbəblərini aradan qaldırmaqdır. Vəziyyətin həllinə gəlincə, bir daha vurğulamaq istərdim: onun məqsədi qısamüddətli atəşkəs olmamalı, qüvvələrin yenidən qruplaşması və yenidən silahlanması üçün bir növ möhlət yox, uzunmüddətli xarakter daşımalıdır", - deyə Putin vurğulayıb.

"Moskva ABŞ Prezidenti Donald Trampın Ukraynada müharibənin başa çatması ilə bağlı təklif etdiyi razılaşmanın şərtlərini araşdırmalıdır". Bu fikri isə Rusiyanın BMT-dəki daimi nümayəndəsinin birinci müavini Dmitri Polyanski "Reuters" agentliyinə bildirib. Rusiya Prezidentinin "Ukrayna böhranının köklü səbəblərinin aradan qaldırılmasının zəruriliyi" fikrini bir daha xatırladan diplomat vurğulayıb: "Buna görə də biz Prezident Trampın başa düşdüyü "razılaşmanın" nə demək olduğuna baxmalıyıq. O, ABŞ-ın 2014-cü ildən bəri Ukraynanı "anti-Rusiyaya" çevirərək və bizimlə müharibəyə hazırlayaraq etdiklərinə görə məsuliyyət daşımır, lakin bu zərərli siyasəti dayandırmaq onun səlahiyyətindədir".

Rəsmi Kiyev də Ağ Evin yeni planlarına birmənalı yanaşmır. Ümumiyyətlə, Ukraynanın mövqeyində tərəddüdlər müşahidə edilir. Kiyev sülh müqabilində ABŞ-dan etibarlı təhlükəsizlik qarantı istəyir, həmçinin sürətli tənzimləməni də məqbul saymır. Zelenski ABŞ-ın yeni seçilmiş prezidenti Trampın komandasına Rusiya ilə sürətli danışıqların təhlükələri barədə xəbərdarlıq edib. Bu barədə "The Telegraph" nəşri yazıb. Bildirilib ki, döyüş meydanında təşəbbüsü ələ keçirmədən Ukraynanı danışıqlara məcbur etmək fəlakətli nəticələrə gətirib çıxaracaq.

Eyni zamanda, Vaşinqtonun özündə də 100 gün planına tərəddüdlə yanaşanlar var. Amerikalı analitiklər hesab edirlər ki, Rusiya 3 il sanksiyalara tab gətirən və buna öyrəşən dövlətdir. Buna görə də anonsu verilən yuxarı gömrük rüsumları və yeni sanksiyalarla Moskvanı onu qane etməyən şərtlərlə sülh masası arxasında əyləşməyə məcbur etmək mümkün olmayacaq.

Tərəflərin mövqeləri arasındakı kəskin fərq o qənaəti yaradır ki, planı reallaşdırmaq elə də asan başa gəlməyəcək. Beləliklə, görəsən, Tramp müharibəni necə dayandıracaq? Dünyanın gözləntiləri doğrulacaqmı?

*Mübariz ABDULLAYEV*

# MKİ-nin yeni rəhbəri...

## Keçmiş deputat ABŞ-ın təhlükəsizliyinə cavabdehlik daşıyacaq

Milli kəşfiyyat orqanları ölkələrin strateji, hətta bəzən son qərarı verən qurumu sayılır. Bu orqan istər ölkənin daxilində, istərsə də ölkə hüdudlarından kənarda dövlətin əsas qoruyucu mexanizmi kimi işləyir - milli maraqların keşiyində dayanır, dövləti mənafenin təmini üçün əlindən gələni edir. Bu mənada, beynəlxalq səviyyədə geniş təsir imkanlarına malik olan fövqəl dövlətlərdə, xüsusilə də ABŞ-da kəşfiyyat orqanı həm də “dərin dövlət” hesab olunur.

### Yeni ad, yeni iş prinsipi...

ABŞ-da hakimiyyətə gələn Tramp komandasının üzvləri arasında böyük maraq doğuran simalardan biri də məhz Mərkəzi Kəşfiyyat İdarəsinə başçılıq edəcək şəxs idi. Qeyd edək ki, yanvarın 23-də Con Retklifi Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru təyin edib. Ağ Evdə keçirilən andiçmə mərasimindən sonra Devid Retklif artıq öz səlahiyyətlərinin icrasına başlayıb.

Qeyd edək ki, C.Retklif Trampın birinci prezidentlik dövründə Ağ Evin milli təhlükəsizlik məsələləri üzrə katibi olub. Ondan öncə isə Texas ştatından Konqresin Nümayəndələr Palatasının deputatı seçilib.

MKİ-in yeni direktoru ABŞ-ın xarici siyasəti ilə bağlı baxışları nöqteyi-nəzərindən Trampla eyni mövqeyi bölüşür. Retklif Çini ABŞ-a və onun beynəlxalq maraqlarına böyük təhdid hesab edir və Çinin qlobal imkanlarının məhdudlaşdırılması üçün daha sərt tədbirlərin görülməsinin tərəfdarıdır. O hətta 2017-ci ildə Çin hakimiyyətini dünyanı zəbt etmək üçün əsgərlər üzərində bioloji sınaqlar həyata keçirməkdə günahlandırmışdı.

Retklifin müsəlman ölkələrinə də münasibəti birmənalı deyil - Trampın birinci hakimiyyəti dövründə müsəlman ölkələrindən ABŞ-a miqrasiya edənlərin sayının azalmasına çağırış etmişdi.

### Mərkəzi Kəşfiyyat İdarəsi necə yaranıb?

Yeri gəlmişkən, ABŞ-da milli təhlükəsizliyi təmin edən iki kəşfiyyat orqanı fəaliyyət göstərir - Federal Təhlükəsizlik Bürosu (FTB) və Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ). FTB-dən fərqli olaraq, MKİ ABŞ-ın beynəlxalq təhlükəsizliyinin təminində məsuldur. Dünyanın müxtəlif ölkələrində ABŞ-ın maraqlarına və təhlükəsizliyinə təhdid yaradan şəxslər və təşkilatlar, o cümlədən lokal hadisələrlə bağlı məlumatlar toplamaq, təhlil etmək və sonda isə ölkə prezidentinə təqdim etmək MKİ-nin əsas vəzifələrindəndir. Qurum hətta xüsusi əməliyyatlar həyata keçirmək səlahiyyətlərinə də malikdir.

Baş ofisi Virciniya ştatının Lanqley şəhərində Corc Buş Kəşfiyyat Mərkəzində yerləşən MKİ İkinci Dünya müharibəsindən sonra 1946-cı il yanvarın 22-də prezident Harri Trumenin sərəncamı ilə yaradılıb. Kəşfiyyat orqanın ilk direktoru kont-admiral Sidni Soyers olub. MKİ heç bir hüquq-mühafizə funksiyalarına malik deyil və dövlət rəhbərinin göstərişi ilə gizli fəaliyyət göstərir. Maraqlıdır ki, son 80 ildə MKİ-nin rəhbər heyətində kont-admirallar üstünlük təşkil edib. 1989-1991-ci illərdə ABŞ-ın prezidenti olmuş Corc Herbert Uoker Buş Mərkəzi Kəşfiyyat İdarəsinə bir il rəhbərlik edib.

Xüsusi bir məqamı da qeyd edək ki, MKİ Misirin Baş Kəşfiyyat Xidməti və Almaniya Federal Kəşfiyyat Xidmətinin əsasının qoyulmasında, o cümlədən bir sıra ölkələrdə kəşfiyyat orqanlarının yaradılmasında mühüm rol oynayıb.





### Trampın birinci hakimiyyəti dövründə MKİ-nin katibi kim olub?

Trampın birinci hakimiyyəti dövründə Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru öncə Mark Pompeo olub. M.Pompeo 2018-ci il aprelin 26-da ABŞ-ın vitse-prezidenti təyin olunduqdan sonra MKİ-nin direktor vəzifəsinə xanım Cina Xaspel təyin olunub. Xaspel 1985-2021-ci illərdə MKİ-də müxtəlif vəzifələrdə xidmət edib - ABŞ-ın müxtəlif ölkələrindəki səfirliklərində MKİ-nin hesabatçısı olub.

Co Baydenin prezidentliyi dövründə Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Villiam Börns olub. Qeyd edək ki, xidməti fəaliyyətini əsasən ABŞ-ın xarici siyasətinə həsr edən V.Börns 2011-2014-cü illərdə Dövlət katibinin müavini vəzifəsində xidmət edib. Bundan əvvəl isə Börns 1998-2001-ci illərdə İordaniyada və 2005-2008-ci illərdə Rusiyada ABŞ-ın səfiri, 2001-2005-ci illərdə Dövlət Departamentində Yaxın Şərq məsələləri üzrə katib köməkçisi və 2005-2008-ci illərdə isə siyasi məsələlər üzrə katib vəzifəsində fəaliyyət göstərib.

Hətta bəzi iddialara görə, Börns İran hakimiyyəti ilə “5+1” formatı arasında nüvə sazişi üzrə keçirilən danışıqlar zamanı bu ölkə rəsmiləri ilə gizli görüşlər keçirib. ABŞ-ın bir çox ekspertləri Obama administrasiyası dövründə İranla nüvə danışıqlarının uğurla keçməsində Börnsun rolunu təqdirəlayiq hesab ediblər. Börnsun MKİ rəhbəri olduğu dövr Ukrayna və Qəzzada müharibənin baş verməsi, Suriyada Əsəd rejiminin devrilməsi ilə yadda qalıb.

*Yunis Abdullayev*

# Aİ narahatdır

## Brüssel cavab tədbirləri görməyə hazırlaşır

ABŞ-ın yeni Prezidenti Donald Tramp Avropa İttifaqından idxal olunan mallara gömrük rüsumu tətbiq edib. Aİ buna qarşılıq olaraq, adekvat tədbirlər görməyə hazırlaşır. “Politico” nəşrinin məlumatına görə, Brüssel Donald Trampın proteksionist siyasətə qayıdacağından və Avropa İttifaqı məhsullarına rüsumları yenidən artıracağından narahatlıq keçirir. Nəşrin məlumatında qeyd olunur ki, Brüssel ticarət müharibəsi ssenariləri üzərində çalışır və zərurət yaranacağı təqdirdə cavab tədbirləri hazırlayır. Avropa rəsmiləri ümid edirlər ki, Vaşinqtonla razılıq əldə olunacaq, lakin rüsumların tətbiq olunacağı təqdirdə Aİ cavab olaraq, ABŞ məhsullarına rüsumlar tətbiq edəcək.

Məsələ ilə bağlı politoloq Züriyə Qarayeva “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, Donald Tramp “öncə Amerika” yanaşması ilə proteksionist iqtisadi siyasət həyata keçirməyi planlaşdırır.

### ABŞ - Aİ münasibətlərində yenilik...

“ABŞ-ın iqtisadi siyasətlərindəki dəyişikliklərin transatlantik münasibətlərdə də problemlər yarada biləcəyi düşünülür. Trampın ABŞ prezidenti kimi hakimiyyətə gəlməsi ilə son illərdə çox yaxın müttəfiq olan Avropa İttifaqı (Aİ) ilə ABŞ arasında münasibətlərdə ciddi dəyişikliklər gözlənilir. Bu kontekstdə Aİ Trampın birinci hakimiyyəti dövründə olduğu kimi, ikinci dövründə də ciddi iqtisadi çətinliklərlə üzləşməyə hazırlaşır” - deyə Z.Qarayeva vurğulayıb ki, Trampın 2017-2021-ci illər arasında prezidentliyi dövründə həyata keçirdiyi ticarət siyasəti, Avropa ölkələrinə əlavə polad və alüminium rüsumları tətbiq etməsi, Paris İqlim Sazişindən çıxması və sərt tonu Aİ üçün gözlənilməz oldu: “Nəticə etibarı ilə ikitərəfli münasibətlər korlandı”.







### Ticarət kəsiri 208,7 milyard dollara çatıb

“Tərəflər arasında əmtəə və xidmətlərin ümumi ticarəti hər il 1,3 trilyon dollar təşkil edir və ABŞ bu günə qədər Aİ-nin ən böyük ticari tərəfdaşı olaraq qalır. Aİ ölkələri uzun illərdir ki, ABŞ-la ticarətdə əhəmiyyətli profisit əldə edirlər. Avropa ölkələrinin ABŞ-a mal və məhsul ixracı sözügedən idxaldan xeyli yüksəkdir. Aİ 2023-cü ildə ABŞ-a 576,3 milyard dollar ixrac, ABŞ-dan isə 367,6 milyard dollar idxal edəcək. ABŞ-ın Aİ ilə ticarət kəsiri 208,7 milyard dollara çatıb,” - deyə Z.Qarayeva bildirib.

### Təxminən 100 milyard dollar...

O qeyd edib ki, son məlumatlara görə, 2024-cü ilin yanvar-noyabr dövründə ABŞ Aİ-dən 555,6 milyard dollar idxal edib, Aİ-yə isə 342 milyard dollar ixrac edib. Belə ki, ötən ilin ilk 11 ayında ABŞ-ın Aİ ilə ticarət kəsiri bütün əvvəlki ili keçərək 213,7 milyard dollara çatıb: “Avropa ölkələrinin ABŞ-la ticarət profisiti var. Sözügedən ticarət kəsiri Trampın açıqlamalarında onu xüsusilə narahat edən bir vəziyyət olaraq önə çıxır. ABŞ-ın ticarət kəsiri olan ölkələrə tariflər qoyulacağını vəd edən Tramp, Avropa məhsullarına 10-20 faiz əlavə rüsumlar tətbiq etməyi planlaşdırır”.

*Yunis Abdullayev*

# Yaratdığı dünyaya köçən yazıçı

## Nodar Dumbadzenin “Mən, nənəm, İliko və İllorian” romanı haqqında

*əvvəli ötən sayımızda*

Sevgi, dostluq, səmimiyyət insanlar arasından sərhədləri götürür, çünki sevgi də, səmimiyyət də könüldən, ruhdan gəlir. Ruhunsa yaşı yoxdur, bütün ruhlar yaşıddır. Bu mənada mən də uzun illər qabaq Zurikoyla bir sinifdə oxumuşam, odun sobasının dərs otağını isitmədiyi soyuq qış günlərində onun gözəl Merisinə müştəri gözüylə oğrun-oğrun mən də baxmışam; Olqa nənənin kötəyini yemişəm, İllarionla it ovlamışam, İlikoyla çaxır oğurluğuna getmişəm.

Dərindən götürəndə, insan heç zaman dünyaya vaxtında gəlmir, ya görmədiyi keçmişin xiffətini çəkir, ya da görməyəcəyi gələcəyə dartınır. Uşaqlıqda, yeniyetməlikdə tez yaşlanmaq istəyirsən, sevdiyin qız səndən böyük olanda dünyaya gec gəlməyinin peşmanlığını çəkirsən. Üzü qocalığa gedəndə isə duyğular tərsinə çevrilir, çərxi-fələyin sürətlə fırlanmağından gileylənirsən. Tərs kimi zaman uşaqlıqda gec, qocalıqda tez keçir...

Dovşan ovu uğursuz başa çatır, İllarion səhvən Muradaya güllə atır. Onlar dərin hüzn içində iti təntənəylə dəfn eləyirlər. Sonra Zuriko nənəsindən bir bardaq çaxır alıb Muradanın qəbri üstündə köpəyə ehsan verir. İndi əsas məsələ bu biyabırçılığı İlikodan gizlətməkdir.

Ancaq pis xəbər tez yayılır, az keçmiş itbaz Zurikela ilə yekəburun İllarion taygöz İlikodan bu məzmunda başsağlığı teleqramı alır: “Əziz Muradanın faciəli ölümü münasibətilə mənim dərin hüznlə başsağlığımı qəbul edin. Bu ağır itkiyə sizinlə birgə mən də acı göz yaşı axıdıram. Dərdim yerə-göyə sığmır, tab gətirə biləcəyəmmi? Kədərlənirəm ki, yas məclisində şəxsən iştirak eləyə bilmədim. Sizə necə təsəlli verim? Ay axmaqlar, ay yaramaz ovçular, sizi görüm lənətə gələsiniz! Bir də it ovuna çıxanda mütləq məni də özünüzlə aparın”.

Bundan sonra İllarion İlikodan gen dolanır, ona düşmən kəsilir. İlikoya çaxır lazım olanda Zurikonu İllariona minnətə göndərir. İllarion ona çaxır satmaqdan qəti imtina eləyəndə İliko çaxırı oğurlamaq qərarına gəlir, bundan ötrü Zurikoyla birgə plan cızır. Bu vaxt zərərdidələrin əlinə onlara sataşmış taygözdən qisas almaq fürsəti düşür. Ona kömәyi müqabilində İlikodan rüşvət alan Zuriko planı İllariona satır, taygözü tələyə salırlar. Sonda hər şey məclis qurulmasıyla, yeyib-içməklə başa çatır.

***

Zurikelanın kənddə keçən uşaqlığı bir ömür qədər uzun görünür. Bu dövrdə onun başına neçə-neçə dadlı-duzlu macəra gəlir, həyatı ürək dolusu yaşayan oğlan bu müddətdə çox şeyə - Meri adlı sinif yoldaşına aşiq olmağa belə vaxt tapır (yaşlananda vaxtdan bu cür səmərəli istifadə eləmək olmur). Bu, kələkbaz oğlanın ilk sevgisidir, ancaq onun sevgisində heç bir yalan, kələk yoxdur.

Zurikela bir axşam İlikoyla İllariona şeir yazdığını deyəndə qocalar əvvəlcə onun dəli olduğu qənaətinə gəlirlər. Şeiri dinləyəndən sonra oğlanı dingildədən duyğunun haradan, nədən güc aldığını anlayırlar.

Sinif yoldaşının diktəsiylə Zuriko Meriyə təmtəraqlı sevgi məktubu yazır. Məktubu qızın çantasına qoyurlar. Zurikelanı dərsdən qovandan sonra müəllim də tərbiyəsiz nəvəsindən Olqa nənəsinə şikayət məktubu yazır, ünvanına çatdırmaq üçün onu Meriyə etibar eləyir. Qız yanılıb nənəyə sevgi məktubunu verir. İlikonun iştirakıyla İllarion məktubu nənəyə oxumağa başlayır. Bundan sonra evdə məzhəkə qurulur. Meri səhvini düzəltmək üçün qayıdanda nənəsi Zurikonu evdən qovur.

Lopa-lopa yağan qarın altında Zurikela Merini evlərinə ötürür. Komediyadan lirikaya keçid qəfil baş verir, amma qətiyyən bayağı təsir bağışlamır, əksinə, müəllif sevgi etirafını bayağılıqdan qurtarmaq üçün mətləbə dolayı yollarla gəlir:

“Evimizin, qar basmış çinarın yanından dinməzcə keçib getdik.

- Burada mənim Muradam basdırılıb...

- Bilirəm...

- Mən Muradanı çox istəyirdim, dünyada hamıdan çox. Onu, nənəmi, İllarionu, İlikonu bərabər istəyirəm.

- Bilirəm, Zuriko...

- Ona qarşı istəyim günbəgün artırdı... O da məni çox istəyirdi... Mən onunla adam kimi söhbət edərdim. Biz bir-birimizi başa düşərdik... O öləndə mən də özümü öldürmək istəyirdim... Adam doğrudan da məhəbbətdən dəli ola bilər! Sənə soyuqdur?

- Hə, soyuqdur...

- Mənə isə soyuq deyil.

Mən kürkümü çıxarıb Merinin çiyninə saldım. Əlimi çəkmədim. Biz beləcə təmiz qarın üstüylə addımlayırdıq. Gedə-gedə susurduq... Merigilin evini keçdik.

- İsindin?

- İsindim, Zuriko.

- Sən ki mənim Muradamı tanıyırdın?

- Tanıyırdım.

- O səni çox sevirdi. Tez-tez mənə deyərdi: Meri çox gözəl qızdır, o hamıdan yaxşıdır, Merinin gözləri bütün gözlərdən qəşəngdir, Meri çox xeyirxah, ağıllı qızdır... Murada səni çox sevərdi, məni sevdiyi qədər, məni sevdiyindən də artıq. O heç vaxt sənə hürməzdi... Sən də onu sevirdin?

- Hə, Zuriko, çox sevirdim, çox.

- Meri!

- Nədir, Zuriko?

Mən Merini məhəbbətlə qucaqlayıb üzümü onun açıq saçları arasında gizlədim. Meri ağlayırdı, mən də ağlayırdım. Lopa-lopa qar yağır, külək vıyıldayırdı. Ay da vardı, günəş də, sevgi də, göz yaşları da... Və çox, olduqca çox qar vardı. İlikodan soruşsan, deyər burada sevinməli nə var ki? Küləkdir, qardır, dünya qopur. Mən isə bu küləyə də, aya da, günəşə də, öz məhəbbətimə də, bu lopa-lopa yağan ağappaq qara da sevinirdim”.

***

Müharibə qurtaran il - 1945-in yazında Zurikela məktəbi bitirib kamal attestatı alır. Olqa nənə, İliko, İllarion birlikdə məsləhətləşib onu ali təhsil almaq üçün Tiflisə göndərmək qərarına gəlirlər, ona ixtisas seçirlər. Nənəsi babasından qalma xeyir-şər paltarını, parıldayan xrom çəkmələri, qaragül papağı sandıqdan çıxarıb nəvəsini geyindirib-kecindirir. Zurikonu yük maşınının banına mindirib təntənəli şəkildə yola salırlar. Meri əlində pay dolu səbət yola çıxsa da, maşına çatmır, eləcə payı əlində yolda boynubükük qalır, başını İlikonun sinəsinə söykəyib ağlayır. Bununla da Zurab Vaşalomidzenin uşaqlıq erası başa çatır.

Zuriko universitetin iqtisadiyyat fakültəsinə qəbul olunur. Kiçik mənzildə yaşayan təqaüdçü Marta xalanın iki otağından birini kirələyib orada qalır. Üçüncü kursda oxuyanda İllarion bir ulaq yükü kənd sovqatıyla ona qonaq gəlir. Məlum olur ki, qocanın gözü ağrıyır, o səbəbdən şəhərdə həkimə düşmək istəyir. İllarionu əməliyyata götürürlər, ağrıyan gözünü çıxarıb yerinə şüşə göz qoyurlar. Onu çıxmış gözündən də çox İlikonun dilindən necə qurtaracağı düşündürür - axı indiyə qədər kor gözünü onun başına qaxıb, “taygöz” deyə onu çox şəbədə qoşub.

Onlar kəndə qayıdanda İliko əvvəl-əvvəl özünü bilməzliyə vurur. Yenə məclis qururlar, yeyib-içib hallanırlar, səs-səsə verib süfrə mahnıları oxuyurlar. İliko hər dəfə mahnıda “göz” sözü işlətdikcə İllarion ona şübhəli-şübhəli, xoflu-xoflu baxır: olmaya taygöz şeytan duyuq düşüb? Məclisin sonuna doğru İllarion rola girmiş İlikonun heç nədən xəbəri olmadığına inanıb arxayınlaşır, gərginlikdən qurtarır. Məclis sona çatanda isə:

“Biz dağılışanda çox gec idi. Mahnı oxuyub qucaqlaşa-qucaqlaşa həyətə düşdük. İllarion darvazaya qədər bizi ötürdü. Çəpəri keçəndən sonra İliko birdən geri döndü:

- İllarion!

- Nə var, təkgöz?

- Yatanda gözünü stəkana qoymağı unutma!

- Nə?! - heyrətlənmiş İllarion xırıltılı səslə soruşdu.

- Heç nə!.. İndi kefin istəyən qədər mənə göz vura bilərsən.

İllarion:

- İliko Çiqogidze! - deyə bağırdı.

- Adımı tez-tez çək, yoxsa unudarsan!.. Amma sözün açığı, bəxtin gətirdi: ovçuluğu sevirsən, heç göz yummaq da lazım olmayacaq. Kənddə kefin istəyən qədər gəz-dolan, itləri vur...”

Coşmuş İllarionla onu qızışdırmaqdan zövq alan İliko ağız-ağıza verib bir az da deyişəndən sonra komediyadan lirikaya (faciə demək olmur, çünki nikbin ruhlu müəllif sevimli personajlarının ən ağır günündə belə onları tragik situasiyaya salmır, yumoru satiranın, kədəri faciənin ayağına aparmır) daha bir uğurlu keçid baş tutur, günah cinləri üçün yaxşı yem olan zarafat göz yaşlarıyla suya çəkilib arınır:

“İliko yolda bir müddət ayaq saxladı, sonra darvazanı açıb geri qayıtdı, İllarionun yanında oturub cibindən tənbəki kisəsini çıxardı. Tüstülətdilər...

- Sənin müsibətini eşidəndə az qaldı ürəyim partlasın, - İliko sözə başladı, - Allah şahiddir ki, düzünü deyirəm... Axı biz bir adamıq, İllarion, sənin bədbəxtliyin mənim də bədbəxtliyimdir... Mən heç sənin xətrinə dəymək fikrində deyildim. Mənə taygöz deyəndə səndən qəti incimirəm... Onu bil ki, biz ikinci gözümüzü də itirsək, ölmərik. Əl-ələ verib bütün dünyanı gəzərik. Gəzə bilməsək, Zurikela bizi gəzdirər. Eləmi, qoca dostum?..

*davamı növbəti sayımızda*



*Fəxri Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# “Poetik təqvim”dən



**Novruz elegiyası**

Sözlər lüğətlərdən qocadır,
Xoşbəxtlikdən çox-çox qədimik biz.
Cavab var sualın acıdır,
Amma sükutundur  son sual, cavab,
priz.

Çətində əsilzadədir ümidlər,
Talelər öncəgörən qaraçıdır.
Bizi nə tülkülər, nə qurdlar aldadıb did-
dilər,
Yalnız insanlar ki, bic və yırtıcıdır.

Doğrudur, elin gözü tərəzidir,
Adamların da əli əyridir- bu da bulmaca.
Bəzən olur ki, daşa dəymir,
Ümidlər itir, əriyir, elə havadaca.

Kafedə taybatay açıqdırsa qapılar,
Dünyada hamımız çıxmazdayıq.
Nə Lələ, nə Kərəm...yalnız qaraltılar...
Siqaret dumanında boğulasıyıq.

Hələ ki menyüdə hərf səhvləri
Dadını qabaqcadan qaçırır xörəklərin.
Sürüşür ağzıyeməkli səfləri
boşqabın dikindəki böcəklərin.

Yenə müğənni qız oxuyur  yanğıyla,
Sən demə, “həyat yaşamağa də-
yər”miş-
İnsan ömrə minnət qoymağıyla
yazıqmış, gülüncmüş, birtəhərmiş.

Hə, biz törəsi qədim şümerlərin,
inklərin, germanların, ulu türklərin,
Ayılıb gördük ki, şulerlərin
çevrəsindəyik: niyə, nədən, neçin?

Ömrün dalı qara tiyanında
Dadsız yeməklərə arzular oldu duz.
Uşaqdıq: ən adi parıltılar da
bir vaxtlar bizimçün ulduzdu, ulduz.

İndisə Ədalət, Xoşbəxt, Səxavət
adı qoymaqdayıq biz uşaqlara.
Bir ömr qədər kiçildirik, bəli, əvət,
Bu əbədi şeyləri dikilib uzaqlara.

Budur, ömrün qırxıncı su çərşənbəsi
21 fevrala düşdü, beşinci dəfə.
Özgədir hər yeni təkrar, kəsəsi,
Yaşansaydı- çəkilməzdi ömür birnəfə-
sə.

Günahlar çeşid-çeşid masa-
sında,
Dünyanın qapısında papaq-
dır ömrümüz.
Verdilər, götürdük lax yu-
murtasın da
iztirab rəngiylə günahın
hər Novruz.



**SƏLİM BABULLAOĞLU**

**Mayın son gecəsində**

**“Biz gecəni ötürdük, amma yün-
gülləşmədik...”**
**Mişel Uelbek**

Göy üzümü bu tavan,
Bu döşəmə, bəs, nədir?
Ağ gəmiysə boz divan,
Yəqin ev tərsanədir.

Hamı öz taleyinin
Magellanı, Kolumbu.
Yaddaşın sularında
Yalnız Xatirə burnu.

Keyidirəm  ağrını
Xəyalın həbləriylə,
Nəticələr çözülmür
Səbəbin əlləriylə.

Təqvimdə salı günü,
Çöldəsə çərşənbədir.
Bu axşam niyə hər şey
Bir az özgə  dildədir?

Mayın son gecəsində
İçimdə bir ayaz var,
Uçuşur pişpişələr
Sanki çəngə bəyaz qar.

Təklikdə tez soyuyur
Çay belə stəkanda,
İnsan da tez böyüyür
Səssiz yaş axıdanda.

Eybi yox, qoy, bir cütü
Qurusun  yanağında,
Oyaqdı bir cüt mələk
Hələki otağında.

**Sentyabr. Eylül. Veresen.
September**

**1.**

Sentyabr. Eylül. Veresen.  September.
Sarı rəng və kədər. Qüssəli tembr.
Uzaqda batıq səs: halsız və yorğundur.
Diş yoxdur, deməli işlər də yoğundur:
nədən ki, adamın tamahı itidir;
hər adam bir az da tamahın itidi.

Eylül, veresen, september, sentyabr
işğal eləyir bütün
diyarı
köndələn  yağışla,
gözdeşən küləklə.
Sonrası rəsmdir:
nə toxun, nə rəng-
lə!
Payızdır. Sonba-
har. Osen. Au-
tumn.
Sarımtıl inqilab.
Sarışın təlatüm.



Veresen. September. Sentyabr. Eylül.
Yarpaqlar qəpik tək elə hey tökülür.
Elə bil kim isə anladır könülsüz:
Bax, budur, dünyanın dəyəri, görürsüz.
Pəncərə önündə  tozlu əlcək
sözsüz bir yazıdır: dünyadan əl çək!

September. Sentyabr. Eylül. Veresen.
Ad üçün hansı söz doğrudur, görəsən?
Sözdən yükünü boşaldıb kağıza
mənalar ehtiyac duymur ağıza.
Otaqda  bürküsə kim deyir bu pisdi?!
Bürkünü hiss edən bədən var ipisti.

**2.**

Sentyabr. Eylül. Veresen.September.
Lüğətlər arası ən adi tender
qalib edərdi yəqin ki, sükutu.
Sonrası  nöqtədir- qələmin ucu.
O isə lap çoxdan yazıbdır: şimşək
çaxanda açacaq çətirlər çiçəktək.

Eylül. Veresen. September.  Sentyabr.
Təqvimlər özünü eləyir biyabır.
Onlara baxmadan bilirsən hətta
qiyabi tanışdır  təqvimlər həyatla.
Açıqdır pəncərə, uçuşur bir arı.
Onun da rəngi sənintək sapsarı.

Veresen. September. Sentyabr. Eylül.
Qızılı alovdan doğulur qara kül.
Hirsinə nida tək siqaret  kötüyü
küldanda dik durub. Ağzının  köpüyü,
hirsin yatır. Elə öz qanında boğulur ürəyin,
gizlənib altında ağappaq köynəyin.

September. Sentyabr. Eylül. Veresen.
Sədəqə istəyir birisi, verirsən:
bir ovuc xırda pul, bir ılıq təbəssüm.
“Qoy, arzun çin olsun, qoy, üzün gül-
sün!”-
qapının dalından sezilən sözlərin
ünvanı göylərdir. Yaşarır gözlərin.

**3.**

Sentyabr. Eylül. Veresen. September.
Göyüzü ağarır tənbəl-tənbəl.
Baxışın səmada marafon yürüşü
geridə buraxır uçağı və quşu.
Miskindir bu yerdə hər hansı məğrur
luq.
Biz ki, göylərə əvvəldən məğlubuq.

Eylül. Veresen.September. Sentyabr.
Gecələr mavrdı, səhərlər kentavr
gödəni, bədəni, rəngi ilə  hər kəs.
Divanda açıqdır İmre Kertes.
Vərəqi geriyə çevirir sərinkeş.
Ömürsə yenidən yaşanmır... eh...kaş...

Veresen. September.Sentyabr. Eylül.
Miçəkdən bir öpüş qazanır süni gül.
Yalanlar daha çox çəkici, güvənli.
Saxta bir avazla oxuyur müğənni:
“Dərdimi göylərə danışsam alışar...”
Eybi yox, qulaqlar buna da alışar ...

September. Sentyabr. Eylül. Veresen.
Frigid qadıntək qələmdən bezirsən.
Üfüqü qızardan qürubun şəfəqi
güldanda bərq vurub  anladır fərqi.
İşıqla kölgənin sevgi oyunu
qurtarır divarda. Filmin sonu.



## “Zirə” “Şamaxını məğlub etdi

Futbol üzrə Misli Premyer Liqasında XX tura start verilib. AZƏRTAC xəbər verir ki, ilk oyun günündə bir qarşılaşma keçirilib. “Şamaxı” doğma meydanda “Zirə”ni qəbul edib. Şamaxı şəhər stadionunda oynanılan görüş qonaqların 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Meydan sahiblərinin yeganə qoluna 38-ci dəqiqədə Brahim Konate imza atıb. Baki təmsilçisinin heyətində isə 45+1-ci dəqiqədə Ruan Renato, 48-ci dəqiqədə Salifu Suma fərqləniblər. Bu nəticədən sonra xallarını 36-ya çatdıran “Zirə” 3-cü, “Şamaxı” isə 17 xalla 8-ci pillədə qalıb.




## Finalçılar bəlli oldu

Avstraliya Açıq çempionatında kişi tennisçilərin mübarizəsində finalçılar bəlli olub. AZƏRTAC xəbər verir ki, italiyalı tennisçi, dünya reytinqinin lideri Yannik Sinner ardıcıl ikinci il turnirin həlledici mərhələsinə yüksəlib. O, yarımfinal görüşündə amerikalı Ben Şeltona qalib gəlib. Yannik Sinner finalda almaniyalı Aleksandr Zveryevlə qarşılaşacaq.




## “Barselona” müqaviləni yenilədi

İspaniyanın “Barselona” komandası futbolçusu Jerar Martinlə müqavilənin müddətini uzadıb. AZƏRTAC xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb. 22 yaşlı müdafiəçi 2028-ci ilin yayınadək İspaniya nəhəngində çıxış edəcək.

Futbolçu bu mövsüm Kataloniya klubunun heyətində 18 matçda 2 məhsuldar ötürmə ilə yadda qalıb.



## Braziliyalı hücumçu “Turan Tovuz”da

Turan Tovuz” heyətinə yeni futbolçu cəlb edib. Klubdan AZƏRTAC-a verilən məlumata görə, bölgə təmsilçisi Joarlem Batista Santosun keçidini rəsmiləşdirib. Braziliyalı hücumçu ilə 2,5 illik müqavilə bağlanılıb. 29 yaşlı futbolçu son olaraq Portuqaliya “Şaveş”inin şərəfini qoruyub.




## İlk dəfə konsept trenajorda yarış keçiriləcək

Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası (AKAF) ilk dəfə akademik avarçəkmə üzrə konsept trenajorda Federasiya birinciliyi təşkil edəcək. Bu barədə AZƏRTAC-a qurumun mətbuat xidmətindən məlumat verilib. Yarış 2 fevral - Azərbaycan Gəncləri Günündə təşkil olunacaq. Mingəçevir “Kür” Olimpiya Tədris-İdman Mərkəzində baş tutacaq yarışda paytaxt Bakı və Mingəçevirdən olan 30 nəfərdən çox idmançı qatılacaq. Qaliblər federasiya tərəfindən diplomla mükafatlandırılacaq. Yarışın keçirilməsində əsas məqsəd idmançıların fiziki hazırlıqlarının yoxlanılmasıdır.

Qeyd edək ki, konsept trenajorda avarçəkmə yarışları dünyada geniş yayılıb. Bu növdə Avropa və dünya çempionatları kimi böyük yarışlar keçirilir.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3854**
**Sifariş: 160**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova